Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Orqanı

# QANUNÇULUQ

## HÜQUQ JURNALI



№ 01 yanvar 2017

*Azərbaycanın tutduğu yol müstəqil Azərbaycan Respublikası, demokratik hüquqi cəmiyyət qurmaq yoludur!*

*Heydər ƏLİYEV,*
*Azərbaycan xalqının ümummilli lideri*



***Ölkəmizin hərtərəfli inkişafı üçün, demokratik, hüquqi dövlətin əsaslarının möhkəmlənməsi üçün məhkəmə-hüquq sisteminin təkmilləşməsi başlıca şərtdir***

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***



QANUNÇULUQ
HÜQUQ JURNALI
№ 01 YANVAR 2017

TƏSİSÇİ:
**Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi**

BAŞ REDAKTOR:
**Fikrət Məmmədov**

REDAKSİYA HEYƏTİ:
**Fuad Ələsgərov**
**Toğrul Musayev**
**Azər Cəfərov**
**Adil Əliyev**
**Faiq Qurbanov**
**Fuad Cavadov**
**Cavid Hüseynov**
**Elçin Xələfov**

BURAXILIŞA MƏSUL:
**Rasim Həsənov**




Qeydiyyat tarixi: 18.04.2003,
Reyestr №-si: 439. İndeks 1032

“Qanunçuluq” jurnalı redaksiyasının kompüter mərkəzində yığılıb səhifələnmiş,
“Ədliyyə Nəşriyyat Evi” MMC-də çap olunmuşdur.
Ədliyyə Nəşriyyat Evi MMC-nin ünvanı: Xaqani küç., 14,
tel.: 598-26-77, 498-55-69

Bank rekvizitləri:
“Ədliyyə Nəşriyyat Evi” MMC
VÖEN 1700212121 H/h 384974 AZM 380701;

Azərbaycan Beynəlxalq Bankın Səbail filialı, kod 805551,
VÖEN 9900001881, M/h 0137010002031,
SWİFT/Bik İBAZAZ-2X.

# Bu sayımızda:


**RƏSMİ MƏLUMAT**

Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin iclası keçirilib ......4
Regionların sosial-iqtisadi inkişafı diqqət mərkəzindədir ..............................6
Qanlı Yanvar faciəsinin 27-ci ildönümü ilə əlaqədar
Şəhidlər xiyabanını ümumxalq ziyarəti ........................................................9
Sükut dəqiqəsi .........................................................................................10

**ƏDLİYYƏ NAZİRLİYİNDƏ**

Ədliyyə işçiləri şəhidlərimizin xatirəsini ehtiramla yad ediblər .....................11
Ədliyyə naziri Biləsuvar rayonunda vətəndaşları qəbul edib.........................12
Ədliyyə Akademiyasında hakimliyə namizədlərlə
tədris kursuna başlanılıb ...........................................................................13
Ölkə Prezidentinin tapşırıqlarının icrası ədliyyə orqanlarının
diqqət mərkəzindədir ................................................................................14
Penitensiar xidmətdə ötən ilin yekunları müzakirə olunub ..........................18
Vyetnamla səmərəli əməkdaşlıq genişlənir ..................................................19
Ədliyyə Nazirliyində görüşlər......................................................................20
Ədliyyə Akademiyasında ............................................................................22

**ŞƏHİDLƏR UNUDULMUR**

Gecə doğan günəş .....................................................................................23

**KONSTİTUSİYA MƏHKƏMƏSİ PLENUMUNUN QƏRARLARI**

“Azərbaycan Respublikası Vergi Məcəlləsinin 140.6-cı maddəsinin həmin
Məcəllənin 13.2.14.1, 140.2, 164.1.2-ci maddələri və Azərbaycan
Respublikası Mülki Məcəlləsinin 747-1 və 747-5-ci maddələri ilə əlaqəli
şəkildə şərh edilməsinə dair” Azərbaycan Respublikası Konstitusiya
Məhkəməsi Plenumunun Qərarı ...................................................................30
“Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 54.3-cü maddəsinin
şərh edilməsinə dair” Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi
Plenumunun Qərarı ...................................................................................37








# Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin iclası keçirilib



**Yanvarın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2016-cı ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib.**

Prezident İlham Əliyev iclasda giriş nitqi söyləyərək 2016-cı ildə dünyada və regionda təhlükələrin artdığını, qanlı müharibələrin davam etdiyini, hətta yeni münaqişə ocaqlarının yarandığını, iqtisadi inkişafla bağlı vəziyyətin də ağırlaşdığını bildirib. Qeyd edib ki, bütün bunlara baxmayaraq, Azərbaycan 2016-cı ildə öz inamlı inkişafını davam etdirib, təhlükəsizlik tədbirləri təmin olunub, xalqımız sülh və əmin-amanlıq şəraitində yaşayıb. "Ölkəmizdə sabitliyin mənbəyi xalqın iradəsi və onun seçimidir", - deyən dövlətimizin başçısı ötən il qarşıda duran bütün vəzifələrin icra edildiyini, neftin qiymətinin aşağı düşməsi fonunda yaranan böhranlı vəziyyətdən çıxış yolu tapıldığını söyləyib.

2016-cı ilin ölkəmizin tarixində dərin iqtisadi islahatlar dövrü kimi qalacağını vurğulayan Prezident İlham Əliyev qəbul edilən qərarlar nəticəsində bundan sonra da qeyri-neft sektorunun inkişafının diqqət mərkəzində olacağını qeyd edib. Təsadüfi deyil ki, keçən il neftin qiymətinin 3-4 dəfə aşağı düşməsi nəticəsində ümumi daxili məhsul azalsa da, qeyri-neft sənayesində 5, kənd təsərrüfatında isə 2,6 faiz artım əldə olunub.

Keçən il Azərbaycana 8 milyard dollar xarici, 3,7 milyard dollar daxili sərmayənin qoyulduğunu deyən Prezident İlham Əliyev vurğulayıb ki, 2016-cı ildə əsas vəzifələrdən biri valyuta ehtiyatlarının qorunması olub və buna da nail olunub. Bəzi neft ölkələrindən fərqli olaraq Azərbaycan Dövlət Neft Fondunun vəsaitlərindən səmərəli istifadə edilib. Azərbaycanda görülən işlərin beynəlxalq maliyyə qurumları tərəfindən də yüksək qiymətləndirildiyini, Davos İqtisadi Forumunun Azərbaycan iqtisadiyyatını rəqabətqabiliyyətliliyinə görə 37-ci yerdə qərarlaşdırdığını deyən dövlətimizin başçısı böhranlı ildə belə ölkədə 100 mindən çox daimi iş yerinin açıldığını vurğulayıb.

Prezident İlham Əliyev bildirib ki, ötən il sosial məsələlərin həlli yenə də diqqət mərkəzində olub, maaşlar 7, pensiyalar 8 faiz artıb və yenə də artmalıdır. Bununla yanaşı, kommunal xidmətlərin diferensiallaşdırılması da sosial ədalət prinsipinə əsaslanıb, orta təbəqənin maraqları nəzərə alınıb. Sosial siyasətin tərkib hissəsi kimi 485 məktəb təmir olunub, 29 yeni məktəb tikilib, 41 tibb müəssisəsi tikilib və ya təmir edilib. Məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması diqqətdə saxlanılıb. Bundan əlavə, "ASAN xidmət" mərkəzlərinin sayı 11-ə çatdırılıb. İndiyə qədər bu mərkəzlərə 13 milyon müraciət daxil olub, göstərilən xidmətlərin sayı artırılıb. "ASAN

Viza"nın fəaliyyətə başlaması ölkəmizə turist axınının daha da sürətlənməsinə geniş imkanlar açıb. 2016-cı ildə Azərbaycana gələn turistlərin sayı 11 faiz artıb.

Ötən il beynəlxalq əlaqələrimizin daha da genişləndiyini deyən Prezident İlham Əliyev 2016-cı ildə Azərbaycana 20-yə yaxın dövlət və hökumət başçısının səfər etdiyini, beynəlxalq təşkilatlarla əlaqələrin genişləndiyini bildirib, Azərbaycan torpaqlarının işğaldan azad olunması və BMT-nin 4 qətnaməsinin yerinə yetirilməsi ilə bağlı Azərbaycanın mövqeyinin dəyişməz qaldığını vurğulayıb. 2016-cı ilin aprelində təmas xəttində baş verən döyüşlərə toxunan dövlətimizin başçısı əks-hücum əməliyyatı nəticəsində ordumuzun düşmənə sarsıdıcı zərbələr vurduğunu və minlərlə hektar torpağın işğaldan azad edildiyini söyləyib.

2016-cı ilin vacib hadisələrindən danışarkən Prezident İlham Əliyev "Cənub" qaz dəhlizinin və "Şahdəniz-2" layihəsinin icrası ilə bağlı bütün addımların atıldığını, TANAP layihəsinin böyük hissəsinin icra edildiyini, Şimal-Cənub nəqliyyat dəhlizinin yaradılması ilə bağlı tədbirlərin görüldüyünü diqqətə çatdırıb.

Ötən il idmançılarımızın Rio Olimpiadasında tarixi nailiyyətə imza atdığını deyən dövlətimizin başçısı sentyabrda baş tutan referendumun nəticələrindən də danışıb, onun xalqımızın iradəsini əks etdirdiyini vurğulayıb.

2016-cı ilin ölkəmizdə "Multikulturalizm ili" elan edildiyini xatırladan Prezident İlham Əliyev bu il çərçivəsində Bakıda bir neçə mötəbər beynəlxalq tədbirlərin keçirildiyini, Roma Papasının ölkəmizə səfəri zamanı verdiyi bəyanatların bir daha Azərbaycanın önəmini təsdiqlədiyini qeyd edib.

Sonra Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri Kamal Abdullayev, Dövlət Miqrasiya Xidmətinin rəisi Firudin Nəbiyev və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri İnam Kərimov görülən işlər və qarşıda duran vəzifələrlə bağlı məruzə ediblər.

Prezident İlham Əliyev yekun nitqində inşaat sektorunun canlandırılması ilə bağlı bir çox tədbirlərin həyata keçirildiyini, bu prosesin insanların həyat şəraitinin yaxşılaşdırılmasına, Bakının daha da gözəlləşməsinə, həm də tikinti materialları bazarının stimullaşdırılmasına xidmət etdiyini bildirib. Prezident yanında Mənzil İnşaatı Dövlət Agentliyinin fəaliyyətini vurğulayan dövlətimizin başçısı qarşıdakı illərdə paytaxtda iki minə yaxın sosial mənzilin inşa olunacağını və Bakıda köhnəlmiş mənzil fondunun yerində yenilərinin tikintisinə start verildiyini, "Ağ şəhər" layihəsinin uğurla icra olunduğunu, qarşıdakı dövrdə Akademik Milli Dram Teatrının arxasında və Təzə Pir məscidinin ətrafında geniş abadlıq işlərinin aparılacağını, ictimai yerlərin yaradılacağını diqqətə çatdırıb.

2017-ci ildə makroiqtisadi sabitliyin təmin edilməsinin, inflyasiyanın birrəqəmli olmasının vacibliyini vurğulayan Azərbaycan Prezidenti bank sektorunun sağlamlaşdırılması ilə bağlı bu il də geniş tədbirlərin görüləcəyini bildirib. Dövlətimizin başçısı sənaye parklarının yaradılması, kənd təsərrüfatının, xüsusilə də taxıl, pambıq, çay, barama və şərab istehsalının artırılması, valyuta gətirən meyvə plantasiyalarının salınması, heyvandarlığın inkişafı ilə bağlı tədbirlərin görülməsinin əhəmiyyətindən danışıb, istehsal olunan məhsullar üçün yeni bazarların tapılmasının vacibliyini vurğulayıb.

Ölkədə infrastrukturun yaradılması, qazlaşdırılmanın aparılması, kənd yollarının tikintisi, içməli su layihələrinin icrası ilə bağlı tapşırıqlarını verən Prezident İlham Əliyev hərbi potensialın gücləndirilməsinə dair əlavə tədbirlərin görüləcəyini bildirib, ekoloji tədbirlərin, ölkəyə turist axınının stimullaşdırılmasının, "ASAN xidmət"in coğrafiyasının və funksiyalarının genişləndirilməsinin, Ələtdəki Bakı Beynəlxalq Dəniz Ticarət Limanının tikintisinin birinci mərhələsinin tam başa çatdırılmasının diqqət mərkəzində saxlanıldığını qeyd edib.

Prezident İlham Əliyev 2017-ci ildə Bakının bir sıra beynəlxalq tədbirlərə, həmçinin İslam Həmrəyliyi Oyunlarına ev sahibliyi edəcəyini söyləyib, 2017-ci ili Azərbaycanda "İslam həmrəyliyi ili" elan edib.



# Regionların sosial-iqtisadi inkişafı diqqət mərkəzindədir

**Yanvarın 30-da Heydər Əliyev Mərkəzində "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının üçüncü ilinin yekunlarına həsr olunan konfrans keçirilib.**

Prezident İlham Əliyev konfransda iştirak edib. Dövlət başçısı konfransda giriş nitqi söyləyib.

Əvvəlki illərdə görülən işlər və ötən ildə aparılan dərin islahatlar hesabına 2016-cı ildə ölkəmizin sosial-iqtisadi inkişafının təmin edildiyini bildirən Prezident İlham Əliyev iqtisadiyyatın əsas göstəricilərinin müsbət olduğunu, kənd təsərrüfatının 2,6 faiz, qeyri-neft sənayesinin 5 faiz artdığını, 100 mindən çox daimi iş yerinin yaradıldığını, Neft Fondunun valyuta ehtiyatlarının qorunduğunu vurğulayıb.

Azərbaycanın uğurlarının beynəlxalq səviyyədə də müsbət qiymətləndirildiyini deyən ölkə başçısı Davos Dünya İqtisadi Forumunun hesabatında Azərbaycan iqtisadiyyatının rəqabətqabiliyyətliliyinə görə üç pillə irəliləyərək 37-ci yerdə qərarlaşdığını, 80-ə yaxın inkişaf edən ölkə arasında inkişaf səviyyəsi reytinqinə görə respublikamızın birinci-ikinci yerləri bölüşdüyünü diqqətə çatdırıb.

2016-cı ildə ümumi iqtisadi inkişafı müsbət qiymətləndirən Prezident İlham Əliyev bölgələrdə aparılan işlərin öz dinamikasını saxladığını, regional inkişaf proqramlarının icrasının bölgələrimizin simasını dəyişdiyini, regionlarda böyük infrastruktur layihələrinin reallaşdığını, o cümlədən 2004-cü ildən bu günədək ölkəmizdə 26 elek-



trik stansiyasının tikildiyini, qazlaşdırmanın səviyyəsinin 92 faizə qalxdığını, təxminən 11 min kilometr avtomobil yolunun çəkildiyini söyləyib. Daxili biznes qurumlarının fəaliyyətinə toxunan ölkə rəhbəri qeyd edib ki, bu illər ərzində Azərbaycanda güclü və fəal milli biznes sinfi formalaşmış, bu günədək sahibkarlara təxminən 2 milyard manat dəyərində güzəştli şərtlərlə kreditlər verilmişdir.

"Bizim siyasətimizin məqsədi ölkəmizi gücləndirməkdir, müstəqilliyimizi möhkəmləndirməkdir və dayanıqlı inkişafa nail olmaqdır" - deyən dövlətimizin başçısı bütün proqramlarda nəzərdə tutulmuş sosial məsələlərin həllinə toxunaraq bildirib ki, 2004-cü ildən başlayaraq 3.000-dən çox məktəb, 600-dən çox tibb ocağı tikilmiş və ya təmir edilmiş, təkcə bölgələrdə 40-dan çox Olimpiya İdman Kompleksi, 20-dən çox muzey, 10-dan çox teatr binası inşa edilmişdir. Həmçinin, bu illərdə ölkə iqtisadiyyatının şaxələndirilməsi ilə bağlı çox ciddi addımlar atılıb, kosmik sənaye yaradılıb.

Prezident İlham Əliyev onu da vurğulayıb ki, bir vaxtlar bəziləri üçün əfsanə kimi görünən layihələr Azərbaycanın sayəsində həyata vəsiqə qazanıb. Ölkəmiz müstəqillik illərində iri enerji layihələrinə imza atıb və yaranan dəhliz əsasında indi Azərbaycan liderliyi hesabına yeni Cənub Qaz Dəhlizi uğurla icra edilir.

"Biz ölkəmizi möhkəmləndirmişik, möhkəm dövlət qurmuşuq və 25 ildir ki, müstəqil ölkə kimi yaşayırıq" - deyən ölkə Prezidenti bütün bu işlərin mərkəzində Azərbaycan vətəndaşının dayandığını diqqətə çatdırıb.

Sonra iqtisadiyyat naziri Şahin Mustafayev, kənd təsərrüfatı naziri Heydər Əsədov, Azərbaycan Meyvə və Tərəvəz İstehsalçıları və İxracatçıları Assosiasiyasının sədri Başir Quliyev, Fındıq İstehsalçıları və İxracatçıları Assosiasiyasının sədri İsmayıl Orucov, Şərab İstehsalçıları və İxracatçıları Assosiasiyasının sədri Elçin Mədətov, Azərbaycan

Turizm Assosiasiyasının rəhbəri Nahid Bağırov, Balıq yemi istehsalı zavodunun direktoru Zaur Salmanov görülən işlər və qarşıda duran məsələlərlə bağlı məruzə ediblər.

Azərbaycan Prezidenti İlham Əliyev konfransda yekun nitqi söyləyib.

Bu il görüləcək işlərlə bağlı tapşırıqlarını verən ölkə başçısı əvvəlcə infrastruktur layihələrinə aid olan məsələlərə toxunaraq bildirib ki, "Azərişıq" bütün regionların dayanıqlı enerji ilə təmin edilməsi üçün əlavə tədbirlər görməli, "Azəriqaz" 80 kəndi qazla təchiz etməli, "Azəravtoyol" şəhərlərarası, magistral yollarla bağlı layihələri davam etdirməli, 40 kənd yolu layihəsi yerinə yetirilməli, içməli su layihələrinin icrası çərçivəsində "Azərsu" 50 kənddə sutəmizləyici qurğular quraşdırmalı, meliorasiya tədbirləri davam etdirilməli, bu il təqribən 150-160 min hektar torpağa suyun verilməsi təmin olunmalıdır.

Sosial məsələlərin həlli ilə bağlı proqramların icrasından danışan dövlət başçısı diqqətə çatdırıb ki, 2017-ci ildə icbari tibbi sığorta ilə bağlı önəmli addımlar atılmalı, sosial infrastruktur layihələrə gəlincə, Təhsil Nazirliyinin xətti ilə təxminən 130-a yaxın məktəbdə təmir və tikinti işləri aparılmalı, Bakı Şəhər İcra Hakimiyyəti də bu istiqamətdə işləri yekunlaşdırmalıdır. Bununla yanaşı, cari ildə 2 Olimpiya İdman kompleksi istifadəyə verilməlidir.

Məcburi köçkünlər üçün yeni yaşayış binalarının və fərdi evlərin tikintisinin diqqət mərkəzində olacağını deyən Prezident İlham Əliyev bu kateqoriyadan olan insanların həyat şəraitinin yaxşılaşdırılması ilə bağlı tədbirlərin görüləcəyini bildirib. Həmçinin, hazırda Cocuq Mərcanlı kəndinin yenidən qurulması ilə bağlı işlərin aparıldığı, ilkin mərhələdə 50 ev tikiləcəyi, kəndin masterplanının hazırlanacağı, sakinlərin məşğulluğu ilə bağlı tədbirlərin görüləcəyi vurğulanıb.

Ölkə rəhbəri ərzaq təhlükəsizliyi ilə bağlı məsələlərin də daim diqqət mərkəzində olduğunu və əsas ərzaq məhsulları ilə özümüzü təmin etdiyimizi qeyd edərək, bəzi məhsulların istehsalının təşkili, bununla da təminatın yüksəldilməsinin əhəmiyyətinə toxunub.

Dövlət başçısı nitqində həmçinin, kənd təsərrüfatının aparıcı sahələri olan taxılçılığın, pambıqçılığın, baramaçılığın, fındıqçılığın, çayçılığın, şərabçılığın inkişafı, meyvə bağlarının salınması, bununla da ixracın səviyyəsinin qaldırılması ilə bağlı tapşırıqlarını verib, tikinti materialları ilə təminat, turizmin inkişafı ilə bağlı tədbirlərin davam etdirilməsinin əhəmiyyətindən danışıb, bu il iki "ASAN xidmət" mərkəzi açılacağını bildirib.

Bütün bu tədbirlərin insanlar daha yaxşı yaşamaları üçün görüldüyünü vurğulayan Prezident İlham Əliyev bunun təkcə maddi tərəflə ölçülmədiyini diqqətə çatdıraraq bildirib ki, "burada, əlbəttə ki, məmur-vətəndaş münasibətləri xüsusi yer tutur. Mən bu məsələ ilə bağlı öz fikirlərimi dəfələrlə demişəm, bu gün də deyirəm, bunu hər kəs bilsin, eşitsin və nəticə çıxarsın. Məmurlar xalq üçün yaşayırlar, əksinə deyil. Məmur xalqın xidmətçisidir, vətəndaşa xidmət, kömək göstərməlidir, yekəxanalıq etməməlidir. Hansısa qanunsuz tələb irəli sürməməlidir. Özünü təvazökar aparmalıdır. Özü və ailə üzvləri nümunə olmalıdır. Rüşvətxorluqla, soyğunçuluqla məşğul olmamalıdır. Məmur, bax, belə olmalıdır, dediyim kimi. Mən hər bir dövlət məmurunu ya icra başçısı, ya başqa vəzifəyə təyin edəndə göstəriş verirəm ki, get insanlara qulluq et, xidmət göstər, dövlətə xidmət et, təmiz işlə. Amma əfsuslar olsun ki, bəziləri nəticə çıxarmırlar. Onların da cəzası verilir və veriləcək".

Çıxışının sonunda "ASAN xidmət"in müsbət fəaliyyətini örnək göstərən dövlətimizin başçısı xoşagəlməz hallara son qoyulması, məmur-vətəndaş münasibətləri ilə bağlı tələblərini bir daha diqqətə çatdıraraq öz işində nöqsana, yaxud da pozuntuya yol verən şəxslərin lazımi səviyyədə cəzalandırılacağını vurğulayıb və iclasda verdiyi bütün tapşırıqları vaxtında və dürüst yerinə yetirməyə çağırıb.

# Qanlı Yanvar faciəsinin 27-ci ildönümü ilə əlaqədar Şəhidlər xiyabanını ümumxalq ziyarəti

## Azərbaycan Prezidenti İlham Əliyev şəhidlərin əziz xatirəsini yad edib





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 20-də - Ümumxalq Hüzn Günündə Şəhidlər xiyabanında 20 Yanvar şəhidlərinin xatirəsini yad edib.**

Qara Yanvar hadisələrindən 27 il keçir. 1990-cı il yanvarın 20-si Azərbaycanın müasir tarixinə ən faciəli günlərdən biri, eyni zamanda, xalqımızın qəhrəmanlıq səhifəsi kimi daxil olub, milli müstəqillik, azadlıq uğrunda mübarizəsinin və yenilməz iradəsinin rəmzinə çevrilib. Təpədən-dırnağadək silahlanmış keçmiş sovet ordusunun cəza tədbirlərinə məruz qalan xalqımız azadlıq əzmini itirməmiş, əksinə, haqq səsini daha ucadan bəyan etmişdi. Düz 27 il əvvəl doğma yurdunun, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan vətənpərvər Azərbaycan övladları həmin müdhiş gecədə canlarından keçərək şəhidlik zirvəsinə ucaldılar. Sovet qoşunlarının Azərbaycanda törətdiyi qanlı qırğından uzun illər keçməsinə baxmayaraq, xalqımız o dəhşətli günlərin ağrı-acısını unutmur, öz vətəndaşlarına divan tutan sovet imperiyasının o vaxtkı rəhbərlərinə və onların Azərbaycandakı nökərlərinə dərin nifrətini bildirir.

Keçmiş SSRİ rəhbərliyinin Azərbaycana qarşı qərəzli, ermənipərəst siyasətinə, əzəli torpaqlarımıza iddia edən Ermənistanın təcavüzkar siyasətinin açıq-aşkar dəstəklənməsinə və respublikanın o zamankı rəhbərliyinin xəyanətkar mövqeyinə etiraz əlaməti olaraq ayağa qalxmış geniş xalq kütlələrinə qarşı sovet ordusunun iri hərbi birləşmələrinin yeridilməsi Azərbaycanda, xüsusilə Bakıda misli görünməmiş faciəyə gətirib çıxardı, böyük itkilərlə, günahsız insanların ölümü ilə nəticələndi. Buna baxmayaraq, Azərbaycanın o vaxtkı səriştəsiz, kölə psixologiyalı rəhbərlərinin yenə də xalqla bir olmağa cəsarəti çatmadı və onlar sovet rəhbərliyinin ətəyindən yapışmaqda davam etdilər.

Onlardan fərqli olaraq, həmin vaxt Moskvada yaşayan xalqımızın dahi oğlu Heydər Əliyev həyatını təhlükədə qoyaraq, faciənin ertəsi günü Azərbaycanın daimi nümayəndəliyinə gələrək, Qanlı Yanvar qırğınını törədənləri pisləyən kəskin bəyanatla çıxış etdi, xalqımızın başına gətirilən müsibəti dünyaya çatdırdı. Bununla da Ulu Öndər cəsarətini, mərdliyini, xalqının sədaqətli oğlu olduğunu bir daha sübut etdi.

Əlbəttə, ermənilərin fitvası ilə törədilmiş bu cinayət Azərbaycan xalqının iradəsini qıra, azadlıq eşqini söndürə bilmədi. Xalqımız qanı bahasına da olsa istəyinə - azadlıq və müstəqilliyinə qovuşdu və





bu nailiyyəti heç vaxt əlindən verməyəcəkdir.

Keçmiş sovet hərb maşınının Azərbaycanda törətdiyi qanlı qırğın mahiyyətinə görə dövlətin öz vətəndaşlarına qarşı tarixdə misli görünməmiş təcavüzü, qətliamı idi. Keçmiş SSRİ və Azərbaycan SSR konstitusiyalarının kobudcasına pozulması, ayaqlar altına atılması idi. Həmin gün keçmiş SSRİ dövləti dinc əhalinin üstünə qoşun yeritməklə BMT Nizamnaməsinə, beynəlxalq hüquq normalarına məhəl qoymamış, iştirakçısı olduğu Mülki və Siyasi Hüquqlar Haqqında Beynəlxalq Paktın bir sıra müddəalarını cinayətkarcasına pozmuşdu.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin Azərbaycan rəhbərliyinə yenidən qayıdışından sonra, 1994-cü ildə 20 Yanvar hadisələrinə siyasi-hüquqi qiymət verildi və cinayəti törədənlərin adları ictimaiyyətə çatdırıldı. 20 Yanvar - Ümumxalq Hüzn Günü elan edildi.

Azərbaycan xalqı hər il 20 Yanvar faciəsi qurbanlarının xatirəsini dərin ehtiramla yad edir.

***

Prezidenti İlham Əliyev Qanlı Yanvar faciəsində həlak olanların əziz xatirəsini yad etmək üçün Şəhidlər xiyabanını ziyarət edib, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub.

Müdafiə Nazirliyinin əlahiddə nümunəvi hərbi orkestrinin ifasında Azərbaycanın dövlət himni səslənib.

Dövlət və hökumət rəsmiləri, respublikamızdakı dini icmaların başçıları, xarici ölkələrin Azərbaycandakı səfirləri, beynəlxalq təşkilatların nümayəndələri də şəhidlərin əziz xatirəsini yad ediblər.

Şəhidlər xiyabanının ziyarət olunması mərasimində Baş nazir Artur Rasi-zadə, Milli Məclisin sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev iştirak ediblər.

## Sükut dəqiqəsi

**Yanvarın 20-də Bakı vaxtı ilə saat 12:00-da Azərbaycanın bütün ərazisində 20 Yanvar şəhidlərinin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub, gəmilərdən, avtomobillərdən və qatarlardan səs siqnalları verilib.**





Qanlı Yanvar faciəsinin ildönümünün keçirilməsi ilə əlaqədar tədbirlər planına uyğun olaraq, respublikanın bütün şəhər və rayon, kənd və qəsəbələrində, idarə və təşkilatlarında 20 Yanvar hadisələri ilə bağlı anma mərasimləri keçirilib, hüzn əlaməti olaraq dövlət bayraqları endirilib.

Paytaxt ictimaiyyəti, yüz minlərlə sakin həmin gün səhər saatlarından başlayaraq Şəhidlər xiyabanını ziyarət edib, qəhrəman Vətən övladlarının xatirəsini ehtiramla anıb, məzarları üzərinə al qərənfillər düzüblər.

# Ədliyyə işçiləri şəhidlərimizin xatirəsini ehtiramla yad ediblər



**1990-cı il Qanlı 20 Yanvar faciəsindən 27 il ötür. Azərbaycanın azadlığı və müstəqilliyi uğrunda mübarizə tarixinə əbədi həkk olunmuş bu dəhşətli hadisələrdən illər keçsə də, xalqımız o müdhiş gecəni heç zaman unutmur, şəhidlərimizin xatirəsini daim ehtiramla yad edir. Böyük itkilərlə, günahsız insanların qətli ilə nəticələnən 20 Yanvar faciəsi həmvətənlərimizin həm də mübarizliyini, əyilməzliyini nümayiş etdirib.**

Ümumxalq hüzn günündə ədliyyə işçiləri Şəhidlər xiyabanını ziyarət edərək Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini ehtiramla yad edib, məzarları üzərinə tər çiçəklər düzüblər.

Bu hadisələrin ildönümü ilə əlaqədar Ədliyyə Nazirliyinin bütün struktur qurumlarında anma mərasimləri keçirilərək faciə qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla anılıb, xalqımızın müstəqillik yolunda keçdiyi keşməkeşli tarixə bir daha nəzər salınıb.

Tədbirlərdə qeyd olunub ki, 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə keçmiş sovet ordusunun xüsusi təyinatlı dəstələrinin Bakıya daxil olaraq günahsız insanların vəhşicəsinə qətlə yetirilməsi bəşəriyyətin yeni tarixində ən qanlı səhifələrdən biridir. Baş vermiş bu dəhşətli hadisədən sonra Azərbaycan xalqı öz haqq səsini dünyaya çatdırmaq istəsə də, imperiya rəhbərliyi hər vəchlə bunun qarşısını almağa çalışmışdır.

Yığıncaqlarda faciənin ertəsi günü ümummilli lider Heydər Əliyevin Moskvada Azərbaycanın daimi nümayəndəliyinə gələrək bu qanlı hadisəyə qarşı kəskin etirazını bildirməsi, Ulu Öndər tərəfindən 1993-cü ildə yenidən hakimiyyətə qayıtdıqdan sonra 20 Yanvar faciəsinə dövlət səviyyəsində hərtərəfli və obyektiv hüquqi-siyasi qiymət verilməsi xüsusilə vurğulanıb. Ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən müstəqil dövlətimizin qüdrətlənməsi, bu tarixi gün barədə əsl həqiqətlərin beynəlxalq ictimaiyyətə geniş çatdırılması üzrə məqsədyönlü addımların atıldığı, diqqət və qayğı ilə əhatə olunan şəhid ailələrinin və əlillərin sosial təminatının gücləndirildiyi qeyd edilib, şəhidlərimizin əziz xatirəsinin hər bir azərbaycanlının qəlbində əbədi yaşayacağı bildirilib.

Nazirlikdə Qanlı Yanvar faciəsi ilə bağlı kinozalda filmlər, foto-slaydlar nümayiş etdirilib.





# Ədliyyə naziri Biləsuvar rayonunda vətəndaşları qəbul edib



**Ölkə Prezidenti cənab İlham Əliyevin dövlət qurumları tərəfindən insanlara layiqli xidmət göstərilməsi, vətəndaşların müraciətlərinə qayğı və həssaslıqla yanaşılması, bu zaman ədalət prinsipinin tam təmin olunması ilə bağlı tapşırıqlarına uyğun olaraq Ədliyyə Nazirliyi tərəfindən vətəndaşların bölgələrdə qəbuluna xüsusi diqqət yetirilir.**

Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq yanvarın 27-də ədliyyə naziri Fikrət Məmmədov Biləsuvar rayonunda Biləsuvar, Salyan və Cəlilabad rayonlarından olan vətəndaşların qəbulunu keçirib.

Qəbuldan əvvəl nazir və Biləsuvar Rayon İcra Hakimiyyətinin başçısı Mahir Quliyev ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək, önünə gül dəstələri qoyub, Ulu Öndərin əziz xatirəsinə dərin ehtiramlarını bildiriblər.

Qəbul zamanı hər bir vətəndaş diqqətlə dinlənilib, müraciətlərdə qaldırılan məsələlərin bir qismi elə yerindəcə öz həllini tapıb, digər müraciətlər üzrə qəbulda iştirak edən nazirliyin aidiyyəti məsul işçilərinə müvafiq tapşırıqlar verilib.

Vətəndaşlar bölgə sakinlərinin yerindəcə qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını ifadə edərək, göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını ifadə ediblər.

Səfər zamanı ədliyyə naziri yerli məhkəmə və ədliyyə orqanlarının fəaliyyəti və iş şəraiti ilə tanış olub, hakimlər və ədliyyə işçiləri ilə müşavirə keçirib.

Müşavirədə dövlət başçısının insanlara daim qayğı və nəzakətlə xidmət göstərilməsi, bu zaman etik davranış qaydalarına ciddi riayət olunması, vətəndaş-məmur münasibətlərinin sağlam zəmində qurulması ilə bağlı tələbləri diqqətə çatdırılıb, vətəndaşların qəbulu və müraciətlərinə baxılması işinin düzgün təşkili və digər tövsiyə və tapşırıqlar verilib.

Eyni zamanda, şəffaflığın, məhkəmə qərarlarının ədalətliliyinin təmin olunmasının vacibliyi, eləcə də qərəzli yanaşmanın yolverilməzliyi, əmək və icra intizamının möhkəmləndirilməsi qeyd olunub, korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilən mühüm institusional və qanunvericilik tədbirlərindən bəhs edilib.

# Ədliyyə Akademiyasında hakimliyə namizədlərlə tədris kursuna başlanılıb





**Hakimliyə namizədlərlə şəffaf prosedurlar əsasında, beynəlxalq standartlara uyğun keçirilmiş test üsulu ilə, habelə yazılı və şifahi imtahanlarda müvəffəqiyyət qazanmış 126 nəfər namizəd uzunmüddətli tədris kursuna buraxılıb.**





Ədliyyə Akademiyasında 1 il müddətində davam edəcək kursun proqramı müasir tədris metodu və beynəlxalq təcrübə nəzərə alınmaqla hazırlanıb, namizədlərin hakim olmaq üçün lazımi biliyə və peşə hazırlığına yiyələnmələrinə xüsusi diqqət yetirilib. Kurs çərçivəsində insan haqlarının etibarlı qorunması, korrupsiya ilə mübarizə, məhkəmə etikası, qərarların tərtibi, qanunvericiliyin yenilikləri və digər aktual məsələlərə dair mövzular nüfuzlu beynəlxalq ekspertlərin iştirakı ilə tədris olunacaq, namizədlərin dünyagörüşünün artırılması məqsədilə mədəni proqramlar təşkil ediləcəkdir.

Həmçinin, namizədlərin məhkəmələrdə staj keçməsi, onların xarici dövlətlərdə, Avropa Məhkəməsində olmaqla qabaqcıl beynəlxalq təcrübələri öyrənmələri nəzərdə tutulur.

Yanvarın 30-da həmin kursun açılışı olub.

Kursu açaraq namizədlərə uğurlar arzulayan və zəruri tövsiyələrini verən ədliyyə naziri, Məhkəmə-Hüquq Şurasının sədri Fikrət Məmmədov məhkəmə sisteminin müasirləşdirilməsi mövzusunda mühazirə ilə çıxış edib, ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş və ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə davam etdirilən uğurlu dövlət inkişafı kursunu, əldə olunmuş nailiyyətləri vurğulayıb, məhkəmə sisteminin müasirləşdirilməsi üzrə görülən irihəcmli işləri və qarşıda duran mühüm tədbirləri qeyd edib.

Həmçinin, Ali Məhkəmənin sədri, Məhkəmə-Hüquq Şurasının üzvü Ramiz Rzayev məhkəmə hakimiyyəti və hakimin statusu mövzusunda mühazirə ilə çıxış edib, məhkəmə sistemində nəzəri və peşə hazırlığı ilə yanaşı, yüksək mənəvi keyfiyyətlərinə, o cümlədən ədalətliliyinə və qərəzsizliyinə, insanlara qayğılı münasibətinə görə fərqlənən şəxslərin təmsil olunmasının xüsusi vacibliyini bildirib.

Kursun ilk günündə məhkəmə hakimiyyətinin konstitusion əsasları mövzusunda çıxış edən Milli Məclis sədrinin birinci müavini, Məhkəmə-Hüquq Şurasının üzvü Ziyafət Əsgərov aktual elmi-praktiki məsələləri namizədlərin diqqətinə çatdırıb və konstitusiyada təsbit olunmuş insan hüquqlarının daha etibarlı müdafiəsində məhkəmələrin xüsusi rolunu vurğulayıb.




# Ölkə Prezidentinin tapşırıqlarının icrası ədliyyə orqanlarının diqqət mərkəzindədir



**Yanvarın 31-də ədliyyə naziri Fikrət Məmmədovun sədrliyi ilə nazirliyin geniş Kollegiya iclası keçirilib.**



Nazirliyin struktur qurumlarının, regional və yerli ədliyyə orqanlarının rəhbər şəxslərinin, QHT və KİV nümayəndələrinin iştirak etdiyi kollegiyada Azərbaycan Prezidenti İlham Əliyevin Nazirlər Kabinetinin 2016-cı ilin yekunlarına və regionların sosial-iqtisadi inkişafına dair iclaslarda verdiyi tapşırıqlarla bağlı ədliyyə orqanlarının qarşısında duran vəzifələr müzakirə olunub.

Nazir F.Məmmədov ümummilli lider Heydər Əliyevin müəyyən etdiyi hərtərəfli inkişaf strategiyasının ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla həyata keçirildiyini, dünyada təhlükələrin, iqtisadi böhranın hökm sürdüyü şəraitdə Azərbaycanın 2016-cı ildə öz inamlı inkişafını, sabitliyini təmin etdiyini, qarşıya qoyulan bütün



strateji inkişaf hədəflərinə nail olunduğunu vurğulayıb.

İclasda dövlət başçısının tapşırıqlarına uyğun olaraq ədliyyə fəaliyyətinin təkmilləşdirilməsi





üzrə həyata keçirilən tədbirlər, ötən il ədliyyə orqanları tərəfindən görülmüş işlər ətraflı təhlil edilib.

Məlumat verilib ki, nazirlik tərəfindən iqtisadi inkişafa, əhalinin maddi və sosial vəziyyətinin yaxşılaşdırılması ilə bağlı əvvəlki illə müqayisədə 40% çox - 1.100-dən artıq qanunvericilik aktının layihəsi hazırlanıb, ictimai həyatın müxtəlif sahələrini tənzimləyən 3 minə yaxın belə akt hüquqi ekspertizadan keçirilib. Əhali üçün daim açıq olan milli qanunvericiliyin elektron bazasına 2.615 sənəd daxil edilib və il ərzində həmin bazaya başçəkmələrin sayı 2,7 dəfə artaraq 500 minə çatıb.





Dövlətimizin başçısının vətəndaşların müraciətlərinə qayğı və həssaslıqla yanaşılması ilə bağlı tapşırıqları diqqətdə saxlanılaraq 50 mindən çox vətəndaş müraciətinə baxılıb, 15.700 vətəndaş nazirlikdə, bölgələrdə və "virtual qəbul" məntəqələri vasitəsilə qəbul edilib, qaldırılan məsələlərlə bağlı zəruri tədbirlər görülüb.

Notariat orqanlarında aparılan əməliyyatların sayı artaraq 3,6 milyonu ötüb, 350 minədək vətəndaşlıq vəziyyəti aktı rəsmiləşdirilib. Bu əməliyyatlarla bağlı 40,3 milyon manatdan çox dövlət rüsumu və haqq ödənilib. Vətəndaşların ədliyyə orqanlarına müraciət imkanlarının asanlaşdırılması və onlara göstərilən hüquqi xidmətlərin keyfiyyətinin yüksəldilməsi məqsədilə ədliyyə infrastrukturunun müasirləşdirilməsi üzrə ardıcıl tədbirlər görülüb, o cümlədən ötən il ölkə başçısının iştirakı ilə Xaçmaz nikah evi, habelə yeni inşa olunmuş Mingəçevir şəhər qeydiyyat








şöbəsi üçün inzibati binalar istifadəyə verilib.

Dövlət qeydiyyatına alınan qeyri-kommersiya təşkilatlarının ümumi sayı artaraq 4.300-ü, KİV-lərin sayı isə 5.100-ü ötüb. Həmçinin, vətəndaş cəmiyyəti institutlarının fəaliyyətinə dəstəyin artırılması, qrantların verilməsi prosedurunun sadələşdirilməsi və şəffaflığın təmin olunması üçün dövlət başçısının tapşırığına əsasən xarici donorlar tərəfindən ölkə ərazisində qrantların verilməsi prosedurunda "bir pəncərə" prinsipinin tətbiqinə başlanılıb, bununla bağlı qeyri-kommersiya qurumlarına və fiziki şəxslərə münasibətdə əlaqələndirici qurum kimi müəyyən olunmuş Ədliyyə Nazirliyi tərəfindən bir sıra tədbirlər görülüb.

Diqqətə çatdırılıb ki, ölkə rəhbərinin tapşırıqlarına uyğun olaraq ədliyyə orqanları tərəfindən göstərilən elektron xidmətlər təkmilləşdirilib, ötən il nazirliyin 25 elektron xidmətindən istifadə edənlərin sayı əvvəlki illə müqayisədə 3 dəfə artaraq 1,8 milyondan çox olub. Hazırda yeni xidmətlərin tətbiqi üzrə işlər görülür. Eyni zamanda, dövlət başçısının Sərəncamı ilə yaradılmış "Elektron məhkəmə" informasiya sistemi çərçivəsində elektron sənəd dövriyyəsinin, məhkəmə işlərinin elektron idarə edilməsinin, proseslərin elektron qeydiyyatının sınaq rejimdə məhkəmələrdə tətbiqi davam etdirilib, sistemin yeni komponentlərinin - "vətəndaşın şəxsi kabineti"nin və "elektron icra"nın yaradılması üzrə və digər tədbirlər görülüb. Artıq bir sıra icra qurumlarında "elektron icra" sistemi pilot qaydada tətbiq edilir. Həmçinin, cari ilin əvvəlindən iqtisadi mübahisələr üzrə məhkəmə iclaslarının fasiləsiz video-audio yazısının aparılması təmin olunur.

Nazirliyin mühüm fəaliyyət istiqamətlərindən olan məhkəmə



qərarlarının icrası sahəsində iş yükü kəskin artıb və icra qurumlarına 2015-ci illə müqayisədə 60% çox - 712 min icra işi daxil olub. Onlardan 300 mindən çoxunun icrası təmin edilib, digərlərinin icrası üzrə tədbirlər davam etdirilir. Görülən tədbirlər nəticəsində hüquqi və fiziki şəxslərə 548 milyon manata yaxın vəsait ödətdirilib.

İcra məmurlarının qanuni tələblərini yerinə yetirməyən 6.548 şəxs barəsində inzibati xəta haqqında protokol tərtib edilib, o cümlədən 3.519 şəxs məhkəmələr tərəfindən inzibati qaydada həbs olunub, məhkəmə qərarlarının icrasından qəsdən yayınan 316 şəxs barəsində cinayət işi başlanılıb. Hesabat dövründə 8.435 borclunun ölkədən getmək hüququ müvəqqəti məhdudlaşdırılıb, məhkəmə qərarını icra etmiş 1.857 şəxsdən əvvəllər qoyulmuş məhdudiyyət götürülüb.

Məhkəmə ekspertizası mərkəzinə il ərzində 41 ekspert ixtisası üzrə 31 minə yaxın iş daxil olub, bu zaman ekspertlər 578 mindən çox suala cavab verməklə qaldırılmış məsələlərin 99,7%-ni həll ediblər.

Bildirilib ki, dövlət gənclər siyasətinə uyğun olaraq yeni nəsil kadr korpusunun formalaşdırılması üzrə tədbirlər davam etdirilib, açıq müsabiqələr nəticəsində əksəriyyətini gənclər təşkil edən 204 nəfər ədliyyə orqanlarına qulluğa qəbul olunub, bütöv-



lükdə ötən il ərzində 555 vakant ştat vahidi komplektləşdirilib. Eyni zamanda dövlət başçısının təşəbbüsü ilə yaradılmış könüllülər institutunun təşviqinə xüsusi diqqət yetirilib, gənc könüllülərin 50-ə yaxını ədliyyə orqanlarında işlə təmin olunub.

Ötən il penitensiar sistemin və infrastrukturun müasirləşdirilməsi, cəza çəkən şəxslərin hüquqlarının qorunması, saxlanma şəraitinin tibbi təminatın yaxşılaşdırılması üzrə tədbirlər davam etdirilib. Dövlət başçısının humanizm siyasəti uğurla həyata keçirilərək möhtərəm Prezidentimizin ötən ildə imzaladığı sərəncamla 148 nəfər əfv olunub, Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, millət vəkili Mehriban Əliyevanın təşəbbüsü ilə 28 may

Respublika günü münasibətilə qəbul olunmuş amnistiya aktının icrası nəticəsində 11 minə yaxın şəxs müxtəlif, o cümlədən azadlıqdan məhrumetmə cəzasından azad edilib.

Həmçinin, cinayət qanunvericiliyinə mühüm dəyişikliklər edilərək iqtisadi sahədə bəzi əməllərin dekriminallaşdırılması ilə bağlı nazirlik tərəfindən geniş maarifləndirmə işi aparılıb, yeni qanunun təsiri altına düşən şəxslərin dairəsi müəyyən olunaraq 1.261 məhkum barədə məhkəmələrə təqdimat göndərilib, artıq onlardan 1.027-nə baxılaraq hamısı təmin edilib.



Ədliyyə fəaliyyətində ictimai iştirakçılığa böyük önəm verilir, vətəndaş cəmiyyətinin nümayəndələri nazirliyin ayrı-ayrı istiqamətləri üzrə, o cümlədən penitensiar sahədə tədbirlərə cəlb olunurlar. Ədliyyə naziri yanında İctimai Komitənin üzvləri dövlətimizin humanizm siyasəti nəticəsində qəbul edilmiş əfv və amnistiya aktlarının icrasında, habelə məhkumların islah olunması prosesində yaxından iştirak ediblər.

İctimai Komitə üzvlərinin də iclaslarına fəal qatıldığı məhkumların cəzadan vaxtından əvvəl şərti azad edilməsi üzrə Xüsusi Komissiya səmərəli fəaliyyət göstərib, ötən dövrdə 6.500-ə yaxın məhkum vaxtından əvvəl şərti azad olunmağa və ya daha yüngül rejimli müəssisəyə keçirilməyə layiq bilinib və artıq məhkəmələr tərəfindən baxılmış həmin işlərdən 97%-i müsbət həll edilib.

Kollegiyada həmçinin bildirilib ki, 2016-cı il nazirliyin beynəlxalq hüquq əməkdaşlığının genişləndirilməsi üzrə tədbirlər görülüb, Çin, Qətər, Türkiyə və Vyetnam ilə ədliyyə sahəsində mühüm sənədlər imzalanıb, Rusiyanın ədliyyə naziri ölkəmizə, habelə nümayəndə heyətimiz Vyetnama səfər etməklə əməkdaşlıq məsələləri müzakirə olunub.



Tədbirə dəvət olunmuş QHT nümayəndələri çıxış edərək ölkə rəhbərliyinin hər zaman xüsusi önəm verdiyi ictimai iştirakçılığın ədliyyə fəaliyyətində geniş tətbiq olunmasını, nazirliklə səmərəli əməkdaşlığı qeyd edərək həyata keçirilən tədbirlərdə yaxından iştirak etdiklərini bildiriblər.

İclasda görülmüş işlərlə yanaşı, ədliyyə fəaliyyətində mövcud nöqsan və çatışmazlıqlar müzakirə edilib, bununla bağlı tabe qurumların rəhbərləri dinlənilib, işin səmərəliliyinin artırılmasına dair aidiyyəti tapşırıqlar verilib.

Kollegiyada ölkə Prezidentinin məmur-vətəndaş münasibətlərinin sağlam zəmində qurulması, insanlara layiqli xidmət göstərilməsi, rüşvətxorluğa, qanunsuz tələblərə və digər neqativ hallara son qoyulması, hər bir məmurun təvazökar olması ilə bağlı tələbləri xüsusilə diqqətə çatdırılaraq etik davranış qaydalarına dönmədən əməl olunması, vətəndaşlara daha həssaslıq və qayğı ilə yanaşılması vurğulanıb.

Eyni zamanda, ədliyyə orqanlarında əmək və icra intizamının möhkəmləndirilməsi, insanlarla daha çox təmasda olan ədliyyə qurumlarında vətəndaş məmnunluğunun yüksəldilməsi, məhkəmə qərarlarının icrası ilə bağlı



əlavə təsirli tədbirlərin görülməsi, regional ədliyyə idarələri tərəfindən prinsipiallığın artırılması, müasir informasiya texnologiyalarının geniş tətbiqi, maliyyə nəzarətinin gücləndirilməsi ilə bağlı və digər konkret göstərişlər verilib.

Kollegiyanın yekunları üzrə ədliyyə nazirinin əmri ilə fəaliyyətində kobud qanun pozuntularına və ciddi nöqsanlara yol verdiklərinə görə 2 nəfər ədliyyə orqanlarından xaric edilib, 1 nəfər tutduğu vəzifədən azad olunub və digər ciddi intizam tədbirləri görülüb.

İclasda bir sıra qeyri-kommersiya hüquqi şəxslər dövlət qeydiyyatına alınıb.

# Penitensiar xidmətdə ötən ilin yekunları müzakirə olunub





**Yanvarın 28-də Ədliyyə Nazirliyi Penitensiar xidmətinin 2016-cı ildəki fəaliyyətinin yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş müşavirə keçirilib.**

Tədbirdə Penitensiar xidmətin rəhbərliyi, tabe qurumların rəis heyəti və nazirliyin aidiyyəti qurumlarının rəhbərləri iştirak ediblər.

Ədliyyə nazirinin müavini, Penitensiar xidmətin rəisi Ceyhun Həsənov tədbiri açaraq, ölkə Prezidenti cənab İlham Əliyevin Nazirlər Kabinetinin 2016-cı ilin sosial-iqtisadi inkişafının yekunlarına dair ijlasında verdiyi tapşırıqlarla bağlı ədliyyə orqanlarının üzərinə düşən vəzifələrin icrası üzrə bir sıra tədbirlərin keçirilməsinin nəzərdə tutulduğunu bildirib.

Qeyd olunub ki, Heydər Əliyev Fondunun Prezidenti, millət vəkili Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Milli Məclis tərəfindən qəbul edilmiş və 11 minə qədər məhkumu əhatə edən amnistiya aktı penitensiar müəssisələrdə 3535 məhkuma tətbiq edilib, onlardan 2901 məhkum cəza çəkməkdən azad olunub, 634 nəfər məhkumun çəkilməmiş cəza müddəti 6 ay azaldılıb.

Xidmətin rəis müavini Oqtay Məmmədov hesabat məruzəsi ilə çıxış edərək, cəza-icra qanunvericiliyində və digər normativ aktlarda nəzərdə tutulmuş tələblərin, müxtəlif sahələr üzrə uzunmüddətli dövlət proqramlarında, nazirliyin kollegiya qərarlarında öz əksini tapmış tapşırıqların yerinə yetirilməsi, Penitensiar Xidmətin Baş idarəsi və tabe qurumların maddi-texniki bazasının inkişaf etdirilməsi, nizam-intizamın möhkəmləndirilməsi, təqsirləndirilən şəxslərin və məhkumların qanunvericiliklə genişləndirilmiş hüquqlarının təmin edilməsi, onların daimi yaşayış yerlərinə yaxın ərazilərdə yerləşdirilməsi, cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə institutunun səmərəli fəaliyyətininin təmin edilməsi istiqamətində görülən işlər barədə məlumat verib.

Bildirilib ki, hesabat dövrü ərzində dövlət başçısı tərəfindən 17 mart 2016-cı il tarixdə imzalanmış 148 məhkumun əfv edilməsi ilə bağlı sərəncam vaxtında və dürüst icra edilib, Cinayət Məcəlləsinə edilmiş dəyişikliklərlə bağlı 06 may 2016-cı il tarixli Qanunun təsiri altına düşən şəxslərin dairəsi müəyyən edilərək, müvafiq sənədlər məhkəmələrə təqdim olunub.

Həyata keçirilmiş axtarış-baxış tədbirləri nəticəsində ötən il 266 mobil telefon, 219,4 qram müxtəlif narkotik və psixotrop maddələr, 45,5 litr qıcqırdılmış maye və spirtli içki aşkar edilərək götürülüb və həmin faktlar üzrə toplanmış materiallar hüquqi qiymət verilməsi üçün aidiyyəti hüquq-mühafizə orqanlarına təqdim edilib.

Digər hüquq-mühafizə orqanları ilə qarşılıqlı fəaliyyət nəticəsində 443 müxtəlif, o cümlədən xüsusilə ağır cinayətlərin üstünün açılmasına köməklik göstərilib.

Hesabat dövrü ərzində pozuntulara yol verən 286 əməkdaş intizam məsuliyyətinə cəlb olunub, 7 əməkdaş tutduğu vəzifədən azad edilib, 20 əməkdaş isə ədliyyə orqanlarından xaric olunub.

Müşavirədə Penitensiar xidmətin ayrı-ayrı idarə rəisləri və cəzaçəkmə müəssisələrinin rəhbərlərinin çıxışları dinlənilib.

Müşavirəyə yekun vuran nazir müavini C.Həsənov mövcud nöqsan və pozuntulara toxunaraq, məhkumların və təqsirləndirilən şəxslərin hüquqlarının daha etibarlı təmin olunması, əməliyyat-axtarış və təhlükəsizlik tədbirlərinin gücləndirilməsi, rejim və davranış qaydalarına dönmədən riayət olunması, qanunsuz əşyaların ötürülməsi və dövriyyəsinin qarşısının alınması məqsədilə preventiv tədbirlərin, habelə nizam-intizamın gücləndirilməsi, islah və tərbiyə işinin səmərəliliyinin artırılması, penitensiar müəssisələrdə istehsalat sahələrinin genişləndirilməsi və kadrlarla işin təkmilləşdirilməsi ilə bağlı konkret tapşırıqlar verib.

# Vyetnamla səmərəli əməkdaşlıq genişlənir



*Vyetnam Prezidenti Çan Day Kuanq tərəfindən Azərbaycan nümayəndə heyətinin qəbulu*

**İqtisadi, ticarət, elmi və texniki əməkdaşlıq üzrə Azərbaycan-Vyetnam Hökumətlərarası Komissiyasının yanvarın 16-da Vyetnam Sosialist Respublikasının Hanoy şəhərində ilk iclası keçirilib.**

Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamına uyğun olaraq Hökumətlərarası Komissiyada ölkəmizi ədliyyə nazirinin müavini Toğrul Musayevin də iştirak etdiyi nümayəndə heyəti təmsil edib.

Səfər zamanı nümayəndə heyəti tərəfindən Vyetnam Sosialist Respublikasının qurucusu Ho Şi Minin mavzoleyi ziyarət edilib, onun xatirəsi yad olunaraq mavzoleyin önünə əklil qoyulub.

Azərbaycanın energetika naziri Natiq Əliyevin və Vyetnamın sənaye və ticarət naziri Tran Tuan Anhın həmsədrliyi ilə keçirilən Komissiyanın iclasında ölkələrimiz arasında mövcud olan dostluq və səmərəli əməkdaşlıq münasibətlərindən bəhs olunub, dövlət başçılarının qarşılıqlı rəsmi səfərlərinin ikitərəfli əlaqələrin daha da inkişafına töhfələr verdiyi vurğulanıb.

İclasda iki ölkənin sosial-iqtisadi vəziyyəti və yaradılmış biznes mühiti barədə ətraflı məlumat verilərək iqtisadiyyatın müxtəlif istiqamətləri, o cümlədən ticarət və investisiya sahəsində əməkdaşlığın perspektivləri geniş müzakirə olunub.

Müzakirələrin sonunda Komissiyanın iclas protokolu imzalanıb. Protokolda hər iki Tərəfin hüquqi sahədə aparılan işləri yüksək qiymətləndirdiyi və ötən il Ədliyyə nazirlikləri arasında imzalanmış əməkdaşlıq haqqında Sazişin həyata keçirilməsinin vacibliyi qeyd olunub.

Növbəti gün Hökumətlərarası Komissiyanın üzvləri Vyetnamın Prezidenti Çan Day Kuanq tərəfindən qəbul edilib. Görüşdə Azərbaycan-Vyetnam Hökumətlərarası Komissiyasının ilk iclasının uğurla




*Vyetnamın ədliyyə naziri Le Tanq Lonq ilə görüş*

keçdiyi qeyd edilərək bundan sonra ölkələrimiz arasında əməkdaşlığın daha da genişlənəcəyinə əminlik ifadə olunub.

Həmçinin nümayəndə heyətinin Parlamentin sədr müavini Uonq Çu Lu ilə görüşü olub.

Səfər çərçivəsində nazir müavini T.Musayevin Vyetnamın ədliyyə naziri Le Tanq Lonq ilə görüşü keçirilib. Görüşdə nazir Le Tanq Lonq ötən il ədliyyə naziri Fikrət Məmmədovun rəhbərlik etdiyi nümayəndə heyəti ilə Vyetnama səfərini məmnunluqla xatırladaraq Azərbaycana dəvətə görə minnətdarlığını bildirib.

Tədbirdə Ədliyyə nazirlikləri arasında imzalanmış əməkdaşlıq haqqında Sazişin icrası ilə bağlı məsələlər, o cümlədən Ədliyyə Akademiyaları arasında təcrübə mübadiləsinin aparılması imkanları müzakirə edilib, müvafiq İşçi Proqramın hazırlanması məqsədəuyğun hesab olunub.

Eyni zamanda Bakı Dövlət Universitetinin Hüquq fakültəsində vaxtilə təhsil almış bir qrup vyetnamlı məzunla və Vyetnam Kommunist Partiyasının Ədliyyə İslahatları üzrə Komissiyasının 2015-ci ildə Azərbaycanda olmuş nümayəndələri ilə ölkəmizin Vyetnamdakı Səfirliyində görüş keçirilib. Söhbət zamanı respublikamızda aparılan mütərəqqi hüquq islahatları, ədliyyə orqanlarının çoxşaxəli fəaliyyət istiqamətləri, korrupsiyaya qarşı mübarizə və vətəndaş məmnunluğuna yönələn Azərbaycan brendi olan "ASAN xidmət" modeli barədə məlumat verilib. Vyetnamlı məzunlar Bakıda keçirdikləri tələbəlik dövrü ilə bağlı xoş xatirələrini bölüşüb və görüşə görə minnətdarlıqlarını ifadə ediblər.

Tədbirlərdə ölkəmizin Vyetnamdakı səfiri Anar İmanov iştirak edib.

# Ədliyyə Nazirliyində görüşlər

**Yanvarın 11-də ədliyyə nazirinin müavini Azər Cəfərovun Avropa Şurası Katibliyinin hüquqi məsələlər və qanunun aliliyi üzrə direktoru Filip Buaya və siyasi məsələlər üzrə direktoru Aleksandr Qessel ilə görüşü olub.**



Görüşdə Azərbaycan və Avropa Şurasının səmərəli əməkdaşlıq etdiyi vurğulanıb, ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən demokratik hüquqi islahatlardan, insan hüquqlarının qorunması istiqamətində aparılan işlərdən, o cümlədən bu sahədə qəbul olunmuş Milli Fəaliyyət Planının icrası üzrə tədbirlərdən bəhs olunub.

Söhbət zamanı Avropa Şurası ilə səmərəli qarşılıqlı fəaliyyətdə məhkəmə sisteminin müasirləşdirilməsi, hakimlərin Avropada örnək kimi dəyərləndirilən ən şəffaf seçimi təqdir olunub, ölkəmizin Ədalət Mühakiməsinin Səmərəliyi üzrə Avropa Komissiyası (CEPEJ) ilə əməkdaşlığından və bu qurumda uğurlu fəaliyyətindən məmnunluq ifadə edilib. Həmçinin, Avropa Şurasının Azərbaycan üçün 2014-2016-cı il üzrə Fəaliyyət Planı çərçivəsində müxtəlif sahələr üzrə mühüm layihələrin həyata keçirilməsi, ölkəmizin İnsan Hüquqları üzrə Avropa Məhkəməsi ilə fəal əməkdaşlığı və birgə tədris tədbirlərinin təşkili barədə razılığın əldə olunması maraqla qarşılanıb.

Faydalı fikir mübadiləsi şəraitində keçən görüşdə əlaqələrin bundan sonra da uğurla davam etdiriləcəyinə əminlik bildirilib, insan hüquqlarının müdafiəsinin gücləndirilməsi, qanunvericiliyin təkmilləşdirilməsi, hakimliyə namizədlərin tədrisi, Avropa Məhkəməsinin qərarlarının icrası və presedentlərinin tətbiqi və digər mövzular üzrə müzakirələr aparılıb, maraq doğuran məsələlərə aydınlıq gətirilib.

Tədbirdə Avropa Şurasının Bakıdakı Ofisinin rəhbəri xanım Draqana Filipoviç iştirak edib.




**Yanvarın 12-də ədliyyə nazirinin müavini Azər Cəfərov Avropa Şurası Parlament Assambleyası (AŞPA) Monitorinq Komitəsinin həmməruzəçiləri Sezar Florin Preda və Stefan Şennak ilə görüşüb.**

Azərbaycan və Avropa Şurası arasında səmərəli əməkdaşlığın qeyd olunduğu görüşdə ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə insan hüquqlarının qorunması istiqamətində aparılan işlərdən, o cümlədən müvafiq Fəaliyyət Planının icrası üzrə tədbirlərdən danışılıb. Həmçinin, məhkəmə-hüquq sistemindəki yeniliklərdən, o cümlədən məhkəmə hakimiyyətinin müstəqilliyinin gücləndirilməsindən, Məhkəmə-Hüquq Şurasının səlahiyyətlərinin genişləndirilməsindən, bu sahədə qanunvericiliyin təkmilləşdirilməsindən bəhs olunub, hakimlərin Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyası (CEPEJ) tərəfindən örnək kimi dəyərləndirilən ən şəffaf seçiminə toxunularaq hazırda növbəti seçimin aparılması və uğur qazanmış namizədlərin sonrakı mərhələyə - uzunmüddətli tədrisə buraxılması barədə məlumat verilib.

Bildirilib ki, hakimlərin və hakimliyə namizədlərin tədrisinə mühüm önəm verilərək bu sahədə İnsan Hüquqları üzrə Avropa Məhkəməsi ilə fəal əməkdaşlıq edilir, Avropa hakimləri mütəmadi keçirilən treninqlərdə iştirak edir, Məhkəmənin presedentlərinin öyrənilməsinə xüsusi diqqət yetirilir. Eyni zamanda, Avropa Şurası ilə birgə müxtəlif sahələr üzrə mühüm layihələrin həyata keçirildiyi vurğulanıb.

Ölkəmizin məhkəmə-hüquq sistemindəki islahatları məmnunluqla qarşılayan həmməruzəçilər, həmçinin vətəndaş cəmiyyətinin inkişafı, QHT-lərin fəaliyyətini tənzimləyən qanunvericiliyin təkmilləşdirilməsi üzrə tədbirlərə maraq göstərib, bu sahədə Avropa Şurası ilə birgə həyata keçirilən "Vətəndaş Cəmiyyəti Dialoqu" layihəsinin əhəmiyyətini qeyd ediblər.

Söhbət zamanı əməkdaşlığın prioritetlərinə dair faydalı fikir mübadiləsi aparılıb, ictimai iştirakçılığın təşviqi, mediasiya institutunun, probasiya xidmətinin tətbiqi və digər məsələlər müzakirə olunub, qonaqları maraqlandıran suallara aydınlıq gətirilib.

Tədbirdə Avropa Şurasının Bakıdakı Ofisinin rəhbəri xanım Draqana Filipoviç və ölkəmizin AŞPA-da daimi nümayəndə heyətinin rəhbəri, millət vəkili Səməd Seyidov iştirak ediblər.

# Ədliyyə Akademiyasında

## Elmi Şuranın iclası



**Yanvarın 21-də Ədliyyə Akademiyasının Elmi Şurasının növbəti iclası keçirilib.**

İclasda Akademiya tərəfindən 2016-cı il üzrə görülmüş işlərlə bağlı geniş məruzə dinlənilib.

Bildirilib ki, ötən il Akademiyaya cəlb olunan dinləyicilərin sayı əvvəlki illərlə müqayisədə artaraq ümumilikdə 149 qrup üzrə 3.400-ə yaxın dinləyici ilkin hazırlıq və davamlı tədris kurslarına cəlb edilib, məhkəmə aparatı işçiləri, vəkillər, ASAN xidmət mərkəzlərində çalışan dövlət qulluqçuları, ASAN könüllülər, eləcə də regionlarda bələdiyyə üzvləri və qulluqçuları üçün çoxsaylı təlimlər keçirilib.

Eyni zamanda, Elmi Kitabxana fondu zənginləşdirilib, kitabların elektron kataloqunun yaradılması ilə bağlı iş davam etdirilib. Akademiyanın nəzdində əhalinin aztəminatlı təbəqəsinə pulsuz hüquqi yardımın göstərilməsi məqsədilə yaradılmış Hüquq Klinikası tərəfindən 300-ə yaxın vətəndaşa pulsuz hüquqi yardım göstərilib.

Elmi Şura Ədliyyə Akademiyasında ötən il ərzində görülmüş işləri qənaətbəxş hesab edib, fəaliyyətin təkmilləşdirilməsi ilə bağlı konkret tapşırıqlar verilib.

İclasda, həmçinin hakimliyə namizədlərin ilkin uzunmüddətli tədris kursunun proqramı ilə bağlı geniş müzakirələr aparılıb. Qeyd olunub ki, Ədliyyə Akademiyası və Hakimlərin Seçki Komitəsi tərəfindən hazırlanmış proqram ötən dövrlərlə müqayisədə əhəmiyyətli dərəcədə təkmilləşdirilib, kursun müddəti artırılaraq Avropa İnsan Hüquqları Konvensiyasının öyrənilməsinə geniş yer ayrılıb, proqrama qadınların ədalət mühakiməsinə çatımlığının təmin edilməsi, Ədalət Mühakiməsinin Səmərəliyi üzrə Avropa Komissiyası (CEPEJ) ilə bağlı və digər yeni mövzular daxil edilib.

Müzakirələr nəticəsində Elmi Şuranın üzvləri tərəfindən verilmiş tövsiyələr nəzərə alınaraq tədris proqramı qəbul olunub.

Şurada Akademiyanın fəaliyyətini tənzimləyən bəzi normativ sənədlərin layihələrinə baxılaraq təsdiq edilib.

## Vəkillər üçün təlim

**Yanvarın 24-27-də Ədliyyə Akademiyası və Avropa Şurası tərəfindən "Avropa İnsan Hüquqları Konvensiyası və Avropa İnsan Hüquqları Məhkəməsinin presedent hüququnun tətbiqi" layihəsi çərçivəsində Bakıda, "Excelicior" mehmanxanasında vəkillər üçün dörd günlük təlim keçirilib.**

Vəkillər Kollegiyasının 50-dək üzvünün cəlb olunduğu tədbirdə təlimçilər üçün təlim proqramının iştirakçıları tərəfindən Avropa Məhkəməsinə müraciət şərtləri və qaydası və Avropa Konvensiyası çərçivəsində mülkiyyət hüququ mövzuları tədris olunub, iştirakçıları maraqlandıran suallar ətrafında səmərəli müzakirələr aparılıb.

# Gecə doğan günəş




***Faciə və qəhrəmanlığın üst-üstə düşdüyü 20 yanvar gecəsi doğan günəş azadlıq yolumuzu işıqlandırdı***

İllər ötür, nəsillər dəyişir, xalqın həyatında baş verən hadisələr tarixə çevrilir. Bəziləri unudulub gedir, bəziləri qan yaddaşına yazılır. Üstündən 27 il keçməsinə baxmayaraq, unudulmayan və yəqin ki, yüz il bundan sonra da unudulmayacaq hadisələrdən biri 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə baş verdi. Həmin gecə dörd bir tərəfdən Bakıya soxulan imperiya ordusu dəhşətli qırğın törətdi, nahaq qanlar axıtdı. Güllələr təkcə insanlara yox, bir xalqın azadlıq arzusuna tuşlanmışdı.

Tankların əzib keçdiyi maşınlar, küçələrə



səpələnmiş cansız bədənlər, inildəyən yaralılar, qan və ölüm... Bu, həmin soyuq, qara qış gecəsinin dəhşətli mənzərəsi, bəzi ştrixləridir. Biz o vaxt görmürdük və görə də bilməzdik ki, bu qanlı-qadalı qaranlıq gecədə bir günəş - azadlıq günəşi doğmaqdadır. Həmin gecə doğan günəş tarixin axarını dəyişdi, xalqın azadlıq yolunu işıqlandırdı.

İndi, aradan illər keçdikdən sonra 20 Yanvar hadisələrinin mahiyyəti, xalqın taleyində oynadığı rol daha aydın görünür. 20 Yanvar tariximizin qanlı və şanlı səhifəsi kimi səciyyələndirilir.

### Tariximizin qanlı və şanlı səhifəsi

Bütün hallarda insan itkisi, bu cür ölüm faciə olaraq qalır. Bu qırğını törədənlər 27 ildir lənətlənir və yəqin ki, yüz il bundan sonra da lənətlənəcək.

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə atılan işıqsaçan güllələrin vıyıltısı, şəhərə soxulan tankların motorlarının uğultusu o gecənin şahidlərinin qulaqlardan hələ də getməyib. Bu qanlı hadisələr 147 insanın qətlə yetirilməsi, 744 nəfərin yaralanması ilə nəticələndi.

Həmin gecə çəkilmiş fotolara bir də baxın. Amansızlıqla qətlə yetirilən bu insanların günahı nə idi? Onlar imperiyanın ədalətsizliyinə etiraz edirdilər. Onlar Vətəni azad, bütöv görmək istəyirdilər. İmperiyanı təşvişə salan bu idi: hərb maşını Bakıya xalqın gözünü qorxutmaq, azadlıq ruhunu qan içində boğmaq üçün göndərilmişdi.

Bu əmri verən Qorbaçovun, Yazovun, Bakatinin niyyəti baş tutmadı. Şəhidlər son mənzilə milyonların çiyinlərində yola salındı. Təpədən-dırnağadək silahlanmış imperiya əsgərləri ilə əhatəyə alınmış Bakı şəhidlərin dəfn günü görünməmiş izdiham yaşadı. Fotolar Azərbaycan xalqının şərəf və ləyaqət salnaməsinin bu şanlı səhifəsini özündə yaşadır.



Baxırıq, xatırlayırıq, kədərlənirik. Baxırıq, şanlı tariximizlə və qəhrəman şəhidlərimizlə fəxr edirik. Tariximizin bu səhifəsini dönə-dönə vərəqləməyə və nəsillərin yaddaşına həkk etməyə ehtiyac var.

### 20 Yanvara aparan yol

Həmin faciədən sonra Bakının xəritəsinə bir çox yeni ünvanlar yazıldı. Qanlı hadisələrin cərəyan etdiyi ən qaynar nöqtədəki yol qovşağı "20 Yanvar" dairəsi adlandırıldı. Buradakı metro stansiyasına "20 Yanvar" adı verildi. Bu yerdə həmin günləri xatırladan abidə qoyuldu.

27 il əvvəl paytaxtın bütün yolları rəmzi mənada burada, indiki "20 Yanvar" dairəsində kəsişirdi. 1990-cı ilin yanvarında burada "XI qızıl ordu" adlı heykəl vardı. Həmin ordunun əsgərləri bu heykəlin önündə dinc əhalini güllələbaran edir, insanları tan-



klarla tapdalayır, avtomobilləri əzib keçirdilər.

Qanlı Yanvara aparan yol nə vaxt, haradan başlayır? İnsanların meydanlara, küçələrə axışmağa, şəhərin giriş qapılarında "barrikadalar" qurmağa vadar edən nə idi? Millətin səbir kasası niyə daşmışdı?

Bütün bunlar başlanğıcını 1980-ci illərin sonlarında Azərbaycanın Dağlıq Qarabağ bölgəsində və onunla bağlı cərəyan edən hadisələrdən götürürdü. Regionda baş qaldırmış erməni separatizminə Kreml rəhbərliyi tərəfindən rəvac və dəstək verilməsi, respublika rəhbərliyinin səriştəsizliyi, milli mənafeyə zidd mövqeyi və mütiliyi xalqda çaşqınlığa səbəb olmuşdu. Daha sonra Ermənistandan azərbaycanlıların zorakılıqla qovulması prosesi başladı. Dağlıq Qarabağda separatçılıq hərəkatı açıq müstəviyə keçdi. Mərkəzi hakimiyyət isə bunun qarşısını almaq əvəzinə, keçmiş muxtar vilayəti Azərbaycanın



idarəçiliyindən çıxarmağa yönələn addımlar atırdı. Azərbaycan təklənirdi.

*Həmin dövrdə cərəyan edən hadisələrin qısa xronikasına nəzər yetirək.*

**1987-ci il.** Dağlıq Qarabağda yaradılmış "Krunk" adlı ekstremist erməni təşkilatı vilayəti Azərbaycandan ayıraraq Ermənistana birləşdirməyi tələb edən çağırışlar səsləndirməyə başlayır. Vilayətdə ilk antiazərbaycan mitinqləri keçirilir.

**1988-ci ilin yanvarı.** Ermənistandan azərbaycanlıların qovulması prosesi başlayır. Azərbaycana ilk qaçqın dalğası gəlir.

**1988-ci ilin fevralı.** Keçmiş muxtar vilayətin Ali Soveti DQMV-nin statusu məsələsinə baxılması haqqında SSRİ Ali Sovetinə müraciət ünvanlayır. SSRİ-nin və Ermənistanın xüsusi xidmət orqanları Azərbaycanı ləkələmək və gələcək mənfur planları üçün zəmin hazırlamaq məqsədilə Sumqayıt hadisələrini törədirlər.

**1988-ci ilin noyabrı.** Mixail Qorbaçov başda olmaqla Kremlin açıq ermənipərəst mövqeyi, respublika rəhbərlərinin Moskvanın iradəsinə boyun əyməsi Azərbaycanda narazılığı gücləndirir, ictimai-siyasi böhranı kəskinləşdirir. Ermənilərin Şuşa şəhəri yaxınlığındakı Topxana meşəsini dağıt-






ması, azərbaycanlıların Ermənistandan kütləvi şəkildə qovulması xalqın səbir kasasını daşdırır. Noyabrın 17-də Bakının mərkəzi meydanında izdihamlı etiraz mitinqi başlayır. Mitinqlər fasiləsiz xarakter alır, insanlar gecə-gündüz meydandan çəkilmir.

**1988-ci ilin dekabrı.** Dekabrın 4-dən 5-nə keçən gecə meydan hərəkatı zor gücünə yatırılır.

**1989-cu il.** SSRİ Ali Sovetinin qərarı ilə DQMV-də Xüsusi İdarə Komitəsi yaradılır. Vilayət tədricən Azərbaycanın nəzarətindən və tabeliyindən çıxarılır. Bəzi rayonlarda xalq cəbhəsi hakimiyyəti ələ alır. Naxçıvanın İranla sərhədlərində tikanlı məftillər sökülür.

Hadisələrin sonrakı gedişinə nəzər salanda açıq-aşkar görünür ki, onlar eyni mərkəzdən hazırlanmış ssenari üzrə idarə olunur, Azərbaycana cəza dəstələri göndərilməsinə zəmin hazırlanırdı. Ermənistanda bir nəfər də azərbaycanlı qalmadığı halda, Bakıda ermənilər yaşamaqda davam edir və bu, milli zəmində təxribatlara şərait yaradırdı. Digər tərəfdən, ölkədə hakimiyyət böhranı özünün pik həddinə çatmışdı. Bakı 20 yanvara addım-addım yaxınlaşırdı...

**1990-cı ilin yanvarı.** Yanvarın əvvəllərində Kremlin göstərişi ilə Bakıya müxtəlif qoşun hissələri və hərbi texnika yerləşdirilir. Yanvarın 13-də ermənilər Bakıda iki azərbaycanlını qətlə yetirirlər. Bundan sonrakı iki gündə "erməni talanları" deyilən növbəti təxribat törədilir. Yanvarın 15-də SSRİ Ali Sovetinin sədri Mixail Qorbaçov DQMV-də və bəzi başqa rayonlarda fövqəladə vəziyyət elan edilməsi haqqında fərman imzalayır.

**1990-cı ilin 19 yanvarı.** Bakıda həyəcanlı xəbərlər dolaşır: bu gecə şəhərə qoşun yeridiləcək. Mərkəzi Komitənin binası qarşısında keçirilən mitinqdə simvolik "dar ağacları" peyda olur. Axşama yaxın küçələr boşalır, mağazalar vaxtından qabaq bağlanır. Küçələrdə şütüyən nömrəsiz avtomobillərdə quraşdırılan səsgücləndiricilər insanları paytaxtın şimal qapısına - indiki "20 Yanvar" dairəsində qurulmuş "barrikadalara" səsləyir.

Adamlar televizorun qarşısında əyləşib həyəcanla təzə xəbər gözləyir və qəfildən ekranda görüntü itir, radio dalğası susur. Nə baş verdiyindən xəbərsiz insanlar küçələrə axışır. Qoşunun qabağını kəsmək,



onu Bakıya buraxmamaq üçün yük maşınları və avtobuslardan "barrikada" qurulur.

**1990-cı ilin 20 yanvarı, saat 00:00.** Keçmiş SSRİ-nin hərbi kontingenti bir neçə istiqamətdən Bakıya soxulur. Atəş səsləri eşidilməyə, səmada işıqsaçan güllələr görünməyə başlayır. Küçələrdə şütüyən tanklar və zirehli maşınlar dinc əhaliyə atəş açır, heç kəsə aman vermir. Ordu hissələri şəhərin içərilərinə doğru irəliləməyə başlayır. Cəza əməliyyatının ilk saatlarında yüzlərlə dinc sakin öldürülür və yaralanır...

## İnformasiya blokadası

Yanvar hadisələrinin ssenarisinə keçmiş sovet rəhbərliyinin Bakıda həyata keçirməyə hazırlaşdığı cəza əməliyyatı barədə xəbərlərin yayılmasının qarşısını almaq üçün Azərbaycan ətrafında informasiya blokadası yaratmaq planı da daxil idi. Blokada, eyni zamanda, ona hesablanırdı ki, əhali Bakıda fövqəladə vəziyyət elan olunmasından və şəhərə qoşun yeridilməsindən xəbər tuta bilməsin. Bu, həm cəza əməliyyatını asanlaşdırmaq və daha çox qan axıtmaq, həm də əhalini xof və vahimə içərisində saxlamaq məqsədi güdürdü.

Yanvarın 19-da saat 19.27-də SSRİ DTK-nın "Alfa" qrupunun və Azərbaycan DTK-nın təşkil etdiyi əməliyyat nəticəsində respublika televiziyasının enerji bloku partladılır. Gecə isə məlum hadisələr baş verir. Ertəsi gün hava işıqlaşar-işıqlaşmaz Bakı sakinləri küçələrə axışır. Gördükləri dəhşətli mənzərələr insanları sarsıdır. Tankların əzib keçdiyi avtobuslar, yük və minik avtomobilləri, qan izləri ağır faciədən xəbər verirdi. Şəhərin mərkəzi küçə və meydanları tanklarla, avtomatlı





hərbçilərlə dövrəyə alınmışdı.

Yanvarın 21-də səhər saat 7-də respublika radiosunda yad, heç kəsə tanış olmayan bir səs eşidildi. Naməlum diktor belə bir məlumat oxumağa başladı: SSRİ Ali Soveti rəyasət heyətinin sədri Mixail Qorbaçov Bakıda fövqəladə vəziyyət elan edilməsi haqqında fərman imzalayıb...

Bu məlumatın səsləndiyi vaxt artıq yüzlərlə insan qətlə yetirilmiş və yaralanmışdı. Morqlar və xəstəxanalar cəsədlərlə, yaralılarla dolmuşdu. Azərbaycan isə hələ bundan xəbərsiz idi.

İnformasiya qıtlığı öz işini görür, şəhərdə müxtəlif şayiələr dolaşırdı: minlərlə adam öldürülüb, cəsədlər gecə ikən dənizə tökülüb. Adamlar heç olmasa, bir kəlmə söz eşitmək ümidi ilə radio dalğalarını ələk-vələk edirdilər. Azərbaycan və rus dilində yayım aparan bütün xarici radiostansiyaların dalğaları vurulduğundan bu da bir nəticə vermirdi.

O vaxt xarici jurnalistlərin imperiyanın ucqarlarına gəlib çıxması müşkül məsələ idi. Dünya Azərbaycanda hansı proseslər getdiyini, dinc əhaliyə xüsusi amansızlıqla divan tutulduğunu bilmirdi.

Bu informasiya blokadasını Azərbaycan xalqının böyük oğlu, hadisələr baş verən vaxt Moskvada təcrid olunmuş vəziyyətdə yaşayan Heydər Əliyev yardı. Yanvarın 21-də Ulu Öndər həyatını təhlükəyə ataraq Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gəldi və Bakıda törədilmiş qanlı hadisələrlə bağlı bəyanat verdi. O, Azərbaycan xalqının başına gətirilən müsibətdən danışdı, bu cinayəti ittiham etdi, təqsirkarları adbaad göstərdi. Heydər Əliyevin 20 Yanvarla bağlı həqiqətləri əks etdirən bəyanatı ildırım sürəti ilə dünyaya yayıldı və informasiya blokadasının yarılması istiqamətində ilk mühüm addım oldu.

## Qanlı statistika

20 Yanvar faciəsi miqyasına, xarakterinə və mahiyyətinə görə keçmiş SSRİ rəhbərliyinin İkinci Dünya müharibəsindən sonra ölkə daxilində törətdiyi misli görünməmiş bir cinayət idi. 1990-cı ilin noyabrında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında çıxış edən Heydər Əliyev bu barədə danışarkən deyirdi: "Mən belə hesab edirəm ki, 19-20 yanvarda baş vermiş bu faciə həm Sovet İttifaqının siyasi rəhbərliyinin, şəxsən Qorbaçovun böyük günahının nəticəsidir, onun diktatorluq meyillərindən əmələ gəlmiş bir haldır və eyni zamanda, Azərbaycan rəhbərlərinin xalqa xəyanəti və cinayətinin nəticəsidir. Mən belə fikirdəyəm ki, Böyük Vətən müharibəsi qurtarandan sonra Sovetlər İttifaqında, ölkənin daxilində - heç bir yerdə, heç bir regionda bu qədər, bu miqyasda qanlı qırğın olmamışdır... Bunun nə qədər böyük miqyasda olmağını onunla da ölçmək olar ki, bu hərbi aksiyanın həyata keçirilməsi üçün SSRİ müdafiə naziri Yazov, SSRİ daxili işlər naziri Bakatin vaxtından qabaq gəlib Bakıda oturub, bu əməliyyatlara rəhbərlik ediblər".



Hadisə ərəfəsində Bakıya və onun ətrafına Sovet ordusunun, daxili qoşunların Azərbaycan xalqına nifrət ruhunda köklənmiş on minlərlə hərbi kontingenti yerləşdirilmişdi. Bəzi məlumatlara görə, onların sayı 65 minə çatırdı. Şəhərdən rus hərbçilərinin ailələri köçürülmüş, xəstəxanalar boşaldılmışdı. Bunlar Bakıya irimiqyaslı hərbi müdaxilə hazırlığından xəbər verirdi.

Yanvar hadisələrini araşdıran "Şit" təşkilatının müstəqil ekspertləri tərəfindən hazırlanmış hesabatdan: "Adamları xüsusi qəddarlıqla və yaxın məsafədən güllələmişlər. Məsələn, Y.Meyeroviçə 21, D.Xanməmmədova 10-dan çox, R.Rüstəmova 23 güllə vurulmuşdur, xəstəxanalar, "təcili yardım" maşınları atəşə tutulmuş, həkimlər öldürülmüş, adamlar süngü-bıçaqla qətlə yetirilmişlər. Onların arasında hər iki gözü tutulmuş B.Yefimtsev də var. Atəş zamanı "Kalaşnikov" avtomatının ağırlıq mərkəzi dəyişən 5,45 çaplı güllələrindən istifadə edilmişdir. Həlak olanlar arasında yetkinlik yaşına çatmayanlar, qadınlar, qocalar, şikəstlər də var idi".

*Qanlı Yanvarın statistikası:*

Öldürülənlər - 147 nəfər;

Yaralananlar - 744 nəfər;

Qanunsuz həbs olunanlar - 841 nəfər.

Yaralananlar arasında 25 qadın və 20 uşaq vardı. Onlardan bəziləri ömürlük şikəst oldu.

Bu qanlı cəza əməliyyatının ağır nəticələrini, müəyyən epizodlarını əks etdirən fotoşəkillər həmin dəhşətli günlərin şahidlərinin acı xatirələrini təzələyir, qaysaq bağlamış yaralar köz-köz olur. İmperiya ambisiyaları, xalqın azadlıq ruhunu qan gölündə boğmaq niyyəti, Azərbaycanın düşmənlərinin məkrli planı neçə-neçə gəncin arzusunu gözündə qoydu. Ata-anaların sinəsinə bala dağı çəkildi. Qadınlar dul, övladlar yetim qaldı.

Əslində 20 Yanvar ayrı-ayrı fərdlərin deyil, bütün xalqın faciəsidir. O müdhiş gecədə həlak olan hər kəsi xalq öz övladı sayır, onlara yas tutur, onlarla qürur duyur. Vaxtilə şəhid ailələrinin üzvləri ilə görüşən Heydər Əliyev onlara təskinlik verərək deyirdi: "Bu itkilərə görə, tələfata görə məyus oluruq, kədərlənirik və daim kədərlənəcəyik. Biz sizinlə birlikdəyik. Bu, tək sizin kədəriniz, sizin qəminiz, qüssəniz deyil, bütün Azərbaycan xalqının qəmi-qüssəsidir. Onlar xalqımızın müstəqillik, milli azadlıq arzularını və bu yolda şəhid olmağa hazır olduğunu bütün dünyaya nümayiş etdirmiş və bununla da qəhrəmanlıq nümunələri göstərmişlər".



Azərbaycan xalqı 20 Yanvarı təkcə hüzn günü kimi deyil, milli qürur və iftixar günü kimi anır.

### Faciə və qəhrəmanlığın üst-üstə düşdüyü gün

Hər bir xalqın tarixində həm faciəli məqamlar, həm də qəhrəmanlıq səhifələri olur. Lakin çox nadir hallarda bu iki məqam üst-üstə düşür. 20 Yanvar Azərbaycan tarixinin məhz belə səhifəsidir. Xalq həmin gün ağır sınağa çəkildi və bu sınaqdan şərəflə çıxdı. Faciə insanları birləşdirdi, xalqı bütövləşdirdi. Bakı şəhidlərini son mənzilə çiyinlər üstündə apardı, görünməmiş izdihamla yola saldı. Ona tuşlanmış top-tüfəngə məhəl qoymadı, bir addımlığındakı təhlükədən qorxub çəkinmədi. Şəhidlərin dəfni nə qədər ağır səhnə olsa da, bir o qədər də qürurverici məqamdır.

Bakı, 1990-cı ilin 22 yanvarı. Paytaxtın ən yüksək nöqtələrindən birində - o vaxt "Dağüstü park" adlanan yerdə şəhidlər üçün məzarlar qazılır. Cənazələr indiki "Azadlıq" meydanına düzülüb. Böyük meydanda iynə atsan yerə düşməz. Həmin anları əks etdirən fotolardan da göründüyü kimi, şəhidləri son mənzilə milyonlarla insan yola salır.

Bu, Azərbaycan tarixində o vaxtadək yaşanmamış bir dəfn mərasimi idi.

Şəhidlər üçün uyğun məzarlıq seçilməsi də



əhəmiyyətli məsələ kimi hamını düşündürürdü. Üç yer təklif olunurdu: İndiki Sahil bağı, o vaxtkı İliç bağı və Dağüstü park. Hər üç təklif və təşəbbüs xalqdan gəlmişdi. Bu məsələ tanınmış ziyalıların və ictimai xadimlərin iştirakı ilə keçmiş Mərkəzi Komitənin qarşısındakı mitinqdə müzakirə olundu. Ümumi rəy belə idi ki, şəhidlər şəhərin ən görkəmli yerində dəfn edilməlidir. Bu parametrlərə ən çox Dağüstü park uyğun gəlirdi. Həmin ərazi Bakının hündür nöqtəsində yerləşirdi və rəmzi baxımdan ucalıq anlamına gəlirdi. Digər tərəfdən, vaxtilə bu yerdə ermənilər tərəfindən 1918-ci ildə törədilmiş soyqırımı qurbanları dəfn olunmuşdu.



Çəmbərəkənd qəbiristanlığı adlanan həmin məzarlıq sonradan sovet rejimi tərəfindən yerləyeksan edilmişdi. 20 Yanvar şəhidlərinin belə bir yerdə dəfn edilməsi tarixi yaddaşın təzələnməsi baxımından da məqsədəuyğun sayıldı.

Prezident İlham Əliyev 20 Yanvar şəhidlərinin fədakarlığını, Vətən qarşısındakı xidmətlərini yüksək qiymətləndirərək deyib: "Azadlıq, müstəqillik uğrunda, Vətən uğrunda özlərini qurban verən şəhidlərimizin hamısının xatirəsini həmişə qəlbimizdə yaşatmalıyıq. Hesab edirəm ki, bugünkü müstəqil, qüdrətli Azərbaycan xalqımızın ən böyük sərvətidir. Şəhidlərimizin, canlarını qurban vermiş insanların bu işdə böyük xidməti olubdur. Bu da heç vaxt yaddan çıxarılmamalıdır".

### Şəhidlər xiyabanı - Müqəddəs məkan

1990-cı ilin yanvarında Bakının xəritəsinə yeni bir ünvan yazıldı: Şəhidlər xiyabanı.

Bu ünvan Azərbaycan xalqının 27 il əvvəl yaşadığı böyük faciədən xəbər verir. Özündə ümummilli kədər və iztirabın nişanələrini yaşadır.

Bu ünvan xalqın qəhrəman oğul və qızlarına böyük hörmət və ehtiramının ifadəsi, müqəddəs ziyarət yeridir.

Bu məkanda günün istənilən vaxtı müxtəlif yaşda insanlar görmək olar. Xüsusən məktəblilər şəhid məzarlarını daha tez-tez ziyarət edirlər. Bu xiyaban Vətən tarixinin qanla yazılmış parlaq səhifəsi, əyani dərs vəsaitidir.

İnsanlar şəhid məzarları önündə ayaq saxlayır,

qranit lövhəyə həkk edilmiş adları oxuyur, şəkillərə baxırlar. Bu məzarlarda uyuyan şəhidlər müxtəlif vaxtlarda, Azərbaycanın müxtəlif guşələrində doğulublar. Ölüm tarixi, əbədiyyətə qovuşduqları məkan isə birdir: 20 yanvar 1990-cı il, Şəhidlər xiyabanı.

Hər 20 Yanvar günü Şəhidlər xiyabanında böyük izdiham yaşanır. Xiyabana insan axınının ardı-arası kəsilmir. Şəhid məzarları önündən yüz minlərlə insan ötüb-keçir: qoca-cavan, uşaq-böyük. Ötüb keçən illər xalqın şəhidlərinə olan ehtiramını nəinki azaltmır, əksinə, baş verənlərin mənası zaman keçdikcə daha aydın dərk olunur, layiq olduğu qiyməti alır.

Digər bir xoş, nəcib ənənə yaranıb. Bakılılar başqa ölkələrdən gəlmiş qonaqlarını, dost-tanışlarını hökmən Şəhidlər xiyabanına aparır, onları 27 il əvvəl yaşanmış faciədən xəbərdar edirlər. Onlara "İlham və Fərizə" dastanını danışırlar.

Paytaxtın rəsmi qonaqlarının, dövlət və hökumət



başçılarının, məşhur insanların səfər proqramlarında Şəhidlər xiyabanını ziyarət də hökmən yer alır.

Şəhidlər xiyabanı bugünkü müasir görkəmini birdən-birə almayıb. Hadisələrin xronikasına nəzər salaq: Ulu öndər Heydər Əliyev 1998-ci il avqustun 5-də Şəhidlər xiyabanında "Əbədi məşəl" kompleksinin yaradılmasına dair Sərəncam imzalayır. Kompleks qısa müddətdə tikilir və həmin il oktyabrın 9-da xiyabanda əbədi məşəl alovlanmağa başlayır. Daha sonra Prezident İlham Əliyevin Sərəncamına əsasən Şəhidlər xiyabanının vahid kompleks kimi yenidən qurulmasına başlanılır və bu iş 2007-ci il noyabrın 2-də tamamlanır. Şəhid məzarlarının hamısının üstü mərmərlə yenidən götürülür. Ərazidə çoxlu gül-çiçək, ağac əkilir. Girişdəki lövhə, "Əbədi məşəl" abidəsindəki səkkizguşəli ulduz və güzgünün məsamələri qızılla işlənir. Beləliklə, Şəhidlər xiyabanı qəhrəman Vətən övladlarının xatirəsinə layiq əzəmətli görkəm alır.



Ulu öndər Heydər Əliyev 20 Yanvar faciəsinin ildönümündəki çıxışında şəhidlərin uyuduğu bu məkana belə qiymət verirdi: "Xalqımızın tarixində çox əzəmətli, qiymətli abidələr var. Ancaq Şəhidlər xiyabanı, XX əsrin sonunda Azərbaycan xalqının milli azadlıq uğrunda özünü qurban vermiş şəhidlərinin məzarları Azərbaycan Respublikasının torpağının ən müqəddəs yeridir və ən qiymətli abidəsidir".

### Qaranlıq gecənin aydın sabahı

Şəhidlərin uğrunda can verdikləri Azərbaycan, qanlı hadisələrin cərəyan etdiyi Bakı bu illər ərzində tanınmaz dərəcədə dəyişib. Xalqımız azadlıq arzusuna qovuşub, indi imzalar içində onun da imzası var. Azərbaycanın üçrəngli bayrağı bu gün dünya ölkələrinin bayraqları sırasında dalğalanır. Baxıb qürur duyur, müstəqil dövlətin vətəndaşı olmağımızla fəxr edirik.

Onda - 1990-cı ilin yanvarında bu bayraq da, müstəqillik də bir xəyal, bir arzu idi. Şəhidlərimizin axan qanı, xalqın verdiyi qurbanlar hədər getmədi, xəyal və arzular həqiqət oldu, qaranlıqdan aydınlığa çıxdıq. 20 Yanvar gecəsi doğan azadlıq günəşi daim başımızın üstündə olacaq, yollarımıza işıq saçmaqda davam edəcək.

**AzərTac**



## AZƏRBAYCAN RESPUBLİKASI ADINDAN

### Azərbaycan Respublikası Vergi Məcəlləsinin 140.6-cı maddəsinin həmin Məcəllənin 13.2.14.1, 140.2, 164.1.2-ci maddələri və Azərbaycan Respublikası Mülki Məcəlləsinin 747-1 və 747-5-ci maddələri ilə əlaqəli şəkildə şərh edilməsinə dair

# AZƏRBAYCAN RESPUBLİKASI KONSTİTUSİYA MƏHKƏMƏSİ PLENUMUNUN QƏRARI

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Fərhad Abdullayev (sədr),

Sona Salmanova, Südabə Həsənova, Rövşən İsmayılov, Rafael Qvaladze, Mahir Muradov, İsa Nəcəfov və Kamran Şəfiyevdən (məruzəçi-hakim) ibarət tərkibdə,

məhkəmə katibi Elməddin Hüseynovun,

maraqlı subyektlərin nümayəndələri Bakı Apellyasiya Məhkəməsinin hakimi Mirzə Tağızadənin, Azərbaycan Respublikası Milli Məclisi Aparatının İqtisadi qanunvericilik şöbəsinin müdir müavini Rövşən Muradovun,

ekspert Bakı Dövlət Universitetinin Mülki proses və kommersiya hüququ kafedrasının dosenti, hüquq üzrə fəlsəfə doktoru Afət Mirzəyevanın,

mütəxəssislər Azərbaycan Respublikası Vergilər Nazirliyi Hüquq Baş İdarəsinin Məhkəmə işlərinin təşkili İdarəsinin rəisi Ramiz Qasımzadənin və 1 saylı Vergilər departamentinin Hüquq şöbəsinin rəisi Vüqar Qurbanovun iştirakı ilə,

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsinə müvafiq olaraq, xüsusi konstitusiya icraatı üzrə açıq məhkəmə iclasında Azərbaycan Respublikası Vergi Məcəlləsinin 140.6-cı maddəsinin həmin Məcəllənin 13.2.14.1, 140.2, 164.1.2-ci maddələri və Azərbaycan Respublikası Mülki Məcəlləsinin 747-1 və 747-5-ci maddələri ilə əlaqəli şəkildə şərh edilməsinə dair Bakı Apellyasiya Məhkəməsinin müraciəti əsasında konstitusiya işinə baxdı.

İş üzrə hakim K.Şəfiyevin məruzəsini, maraqlı subyektlərin nümayəndələrinin və mütəxəssislərin çıxışlarını, ekspertin rəyini dinləyib, iş materiallarını araşdırıb müzakirə edərək, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**MÜƏYYƏN ETDİ:**

Bakı Apellyasiya Məhkəməsi Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə (bundan sonra - Konstitusiya Məhkəməsi) müraciət edərək, maliyyə lizinqi müqaviləsi üzrə lizinq obyekti olmuş əmlakın lizinq alanın mülkiyyətinə verilməsi əməliyyatının maliyyə xidmətləri olması baxımından Azərbaycan Respublikası Vergi Məcəlləsinin (bundan sonra - Vergi Məcəlləsi) 140.6-cı maddəsinin həmin Məcəllənin 13.2.14.1, 140.2, 164.1.2-ci maddələri və Azərbaycan Respublikası Mülki Məcəlləsinin (bundan sonra - Mülki Məcəllə) 747-1 və 747-5-ci maddələri ilə əlaqəli şəkildə şərh olunmasını xahiş etmişdir.

Müraciətdə göstərilir ki, "Unileasing Lizinq Şirkəti" Qapalı Səhmdar Cəmiyyəti 2 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsinə iddia ərizəsi ilə müraciət edərək, Azərbaycan Respublikası Vergilər Nazirliyi yanında Bakı Vergilər Departamentinə (bundan sonra - Bakı Vergilər Departamenti) qarşı 11 iyun 2014-cü il tarixli səyyar vergi yoxlaması aktının və 24 iyul 2014-cü il tarixli "Vergi ödəyicisinin vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyətə cəlb edilməsi haqqında" Qərarın 323.942,27 manat əlavə dəyər vergisi (bundan sonra - ƏDV) və tətbiq olunmuş 161.971,13 manat maliyyə sanksiyası hissəsində ləğv olunması barədə qərar

çıxarılmasını xahiş etmişdir. İddiaçı vergi orqanının maliyyə sanksiyasını tətbiq edərkən malların maliyyə lizinqi obyekti kimi VÖEN-i olmayan fiziki şəxslərə təqdim edilməsinin yolverilməz olması, lizinq obyektinin lizinqə verilməzdən əvvəl bilavasitə lizinq verənin sahibliyində olmasının lizinqin mahiyyətinə uyğun gəlməməsi barədə mövqeyi ilə razılaşmamışdır.

2 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsinin 17 fevral 2016-cı il tarixli qərarı ilə iddia qismən təmin edilərək səyyar vergi yoxlaması aktının və "Vergi ödəyicisinin vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyətə cəlb edilməsi haqqında" Qərarın ƏDV və maliyyə sanksiyasının tətbiq olunması hissəsində ləğv olunmuşdur.

Birinci instansiya məhkəməsi qərarını onunla əsaslandırmışdır ki, Vergi Məcəlləsinin 13.1, 13.2.14.1, 140, 159.1-ci maddələrində və Mülki Məcəllənin 747-2 və 748-3-cü maddələrində lizinq alanın sahibkarlıq fəaliyyəti ilə məşğul olması (VÖEN-i olan fiziki şəxs olması) barədə hər hansı bir tələb mövcud deyildir. Məhkəmə, həmçinin hesab etmişdir ki, əməliyyatın maliyyə lizinqi hesab olunması üçün əsas mülki münasibətlərdə iştirak edən şəxslərin sayı, əmlakın lizinq verənin mülkiyyətində olub-olmaması deyil, əməliyyatın Vergi Məcəlləsinin 140.2-ci maddəsində qeyd olunmuş şərtlərə uyğun olmasıdır. İddiaçı tərəfindən lizinqə verilməmişdən əvvəl onun mülkiyyətində olan əmlak fiziki şəxslərə maliyyə lizinqi müqaviləsinə əsasən lizinqə verilmiş, lizinq müqaviləsinin sonunda isə həmin əmlak lizinq alanın mülkiyyətinə keçmiş və bu əməliyyat Mülki Məcəllənin 747-1.2-ci maddəsi, Vergi Məcəlləsinin 140.6 və 159.1-ci maddələri ilə heç bir ziddiyyət təşkil etməmişdir. Belə ki, iddiaçının mülkiyyətində olan və lizinqə verilmiş əmlak məhz Mülki Məcəllənin 747-5.2.1-ci maddəsinə əsasən, lizinq verən tərəfindən xüsusi olaraq lizinqə verilmək üçün əldə edilmişdir.

2 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsinin qeyd olunan qərarı ilə razılaşmayan Bakı Vergilər Departamenti Bakı Apellyasiya Məhkəməsinə şikayət vermişdir.

Apellyasiya instansiyası məhkəməsi vergitutma məqsədləri üçün maliyyə lizinqi müqaviləsi üzrə lizinq alanın sahibkarlıq fəaliyyəti ilə məşğul olması barədə tələbin olması, eyni şəxsin satıcı və lizinq verən şəxs qismində çıxış etməsi zamanı ƏDV-nin tətbiqi, Vergi Məcəlləsinin 140.6-cı maddəsinə əsasən maliyyə lizinqi müqaviləsi üzrə lizinq obyekti olmuş əmlakın lizinq alanın mülkiyyətinə verilməsi əməliyyatının ƏDV-yə cəlb edilməsi, həmçinin vergitutma məqsədləri üçün mülki qanunvericiliyin tətbiqi ilə bağlı yuxarıda göstərilən məqamlara aydınlıq gətirilməsi üçün Konstitusiya Məhkəməsinə müraciət etmişdir.

Bakı Apellyasiya Məhkəməsi müraciətini onunla əsaslandırmışdır ki, göstərilən məsələlərin Konstitusiya Məhkəməsi tərəfindən şərh edilməsi vahid məhkəmə təcrübəsinin formalaşması, fiziki və hüquqi şəxslərin hüquqlarının və qanuni mənafelərinin daha səmərəli təmin edilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Konstitusiya Məhkəməsinin Plenumu müraciətlə bağlı aşağıdakıların qeyd olunmasını zəruri hesab edir.

Dövlət və bələdiyyə büdcələrinin formalaşması mənbələri sırasında vergilərin xüsusi yeri və çəkisi vardır. Vergi münasibətlərini tənzimləmək yolu ilə dövlət özünün və bələdiyyələrin məqsəd və vəzifələrinin həyata keçirilməsini təmin edir. Büdcə sistemi ilə vergilər arasındakı mövcud əlaqələrin həcmi və möhkəmliyi dövlət və cəmiyyətdəki iqtisadi və sosial proseslərin inkişafına göstərdiyi təsirlə sıx bağlıdır. Dövlət məhz maliyyə resursları (o cümlədən vergi yığımları) hesabına iqtisadi, sosial, ekoloji və s. sahələrdəki funksiyalarının maliyyələşdirilməsi imkanına malik olur.

Azərbaycan Respublikası Konstitusiyasının (bundan sonra - Konstitusiya) 12-ci maddəsinin I hissəsinə müvafiq olaraq, insan və vətəndaş hüquqlarının və azadlıqlarının, Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədidir. Konstitusiyanın 16-cı maddəsinin I hissəsinə görə, Azərbaycan dövləti xalqın və hər bir vətəndaşın rifahının yüksəldilməsi, onun sosial müdafiəsi və layiqli həyat səviyyəsi qayğısına qalır.

Bu funksiyaların həyata keçirilməsinin təmin edilməsi qanunla müəyyən edilmiş vergiləri ödəməklə bağlı fiziki və hüquqi şəxslərin hüquqi vəzifələrini yaradır.

Konstitusiyanın 73-cü maddəsinin I hissəsində təsbit olunur ki, qanunla müəyyən edilmiş vergiləri və başqa dövlət ödənişlərini tam həcmdə və vaxtında ödəmək hər kəsin borcudur. Beləliklə, qanuni

şəkildə vergiləri ödəmək (o cümlədən müvafiq vaxtda və miqdarda) hər bir şəxsin əsas konstitusiya vəzifələrindən biridir.

Konstitusiya Məhkəməsinin Plenumu "Azərbaycan Respublikası Vergi Məcəlləsinin 78.3, 85.4, 90.3 və 93.1.1-ci maddələrinin şərh edilməsinə dair" 12 yanvar 2011-ci il tarixli Qərarında qeyd etmişdir ki, Konstitusiyanın 73-cü maddəsində təsbit olunmuş vergi ödəmək vəzifəsi dövlətin şərtsiz tələbi kimi bütün vergi ödəyicilərinə şamil olunur. Vergi ödəyicisi qanunla nəzərdə tutulmuş qaydada müəyyən pul məbləği şəklində dövlətin xəzinəsinə ödənilməli olan əmlakının müəyyən hissəsinə dair öz mülahizəsinə uyğun sərəncam verə bilməz və bu məbləği mütəmadi olaraq dövlətin xeyrinə keçirməyə borcludur, əks təqdirdə dövlətin, həmçinin digər şəxslərin hüquqları və qanunla qorunan maraqları pozulmuş olar. Vergi ödəyicisinin bu vəzifəsində cəmiyyətin bütün üzvlərinin ictimai maraqları öz əksini tapmışdır. Buna görə dövlət yalnız vergi ödəyicilərinin deyil, həmçinin cəmiyyətin digər üzvlərinin də hüquq və qanuni mənafelərinin qorunması məqsədilə vergi hüquq münasibətlərini tənzimləmək sahəsində qanuni tədbirlər görmək hüququna və vəzifələrinə malikdir.

Konstitusiya Məhkəməsinin Plenumu məhz bu mövqedən çıxış edərək, müraciətdə qaldırılan məsələlərin tam və ətraflı araşdırılması üçün Mülki və Vergi məcəllələrinin bəzi maddələrini əlaqəli şəkildə şərh edərək onlara aşağıdakı ardıcıllıqla aydınlıq gətirilməsini məqsədə uyğun hesab edir:

- sahibkarlıq fəaliyyəti ilə məşğul olmayan fiziki və ya hüquqi şəxsin lizinq müqaviləsi üzrə lizinq alan ola bilməsinin mümkünlüyü;
- lizinq müqaviləsi bağlananadək əldə edilmiş əmlakın lizinqə verilməsinin mümkünlüyü;
- lizinq müqaviləsi üzrə eyni şəxsin satıcı və lizinq verən şəxs qismində çıxış etməsinin mümkünlüyü;
- lizinq verən maliyyə lizinqi başlananadək aktivin sahibi olduğu hallarda vergitutma qaydası (Vergi Məcəlləsinin 140.6-cı maddəsi).

Konstitusiyanın 15-ci maddəsinə görə, Azərbaycan Respublikasında iqtisadiyyatın inkişafı müxtəlif mülkiyyət növlərinə əsaslanaraq xalqın rifahının yüksəldilməsinə xidmət edir. Azərbaycan dövləti bazar münasibətləri əsasında sosialyönümlü iqtisadiyyatın inkişafına şərait yaradır, azad sahibkarlığa təminat verir, iqtisadi münasibətlərdə inhisarçılığa və haqsız rəqabətə yol vermir.

Konstitusiyanın bu prinsiplərini əsas götürərək dövlət, iqtisadiyyatın inkişafı, xalqın rifahının yüksəldilməsi məqsədilə müəyyən güzəştlər tətbiq edərək lizinq bazarının inkişaf etdirilməsinə şərait yaratmışdır. Azərbaycan Respublikasında lizinq münasibətlərinin inkişaf etdirilməsinin əsas məqsədi lizinq alanın maliyyə durumunun yaxşılaşdırılması, sahibkarlığın təşviq edilməsi, kənd təsərrüfatı mallarının istehsalçılarının maddi və texniki bazasının möhkəmləndirilməsi və yenilənməsi, sahibkarlığı maliyyələşdirmə vasitəsi kimi lizinqdən geniş istifadə edilməsinin həvəsləndirilməsi, ümumilikdə ölkədə rifahın yaxşılaşdırılması və sairdir.

Lizinqin bir sıra üstün cəhətləri vardır:

- lizinq üzrə maliyyələşdirmə bank kreditlərindən daha uzunmüddətlidir;
- əldə edilmiş mülkiyyət girov təminatı rolu oynayır;
- vergi güzəştlərindən istifadə edilməsinə imkan yaradır və sair.

Lizinq, lizinq verənlə lizinq alan arasında əksər hallarda uzunmüddətli xarakter daşıyan maliyyə sazişidir. Lizinq müqaviləsinə görə, lizinq verən lizinq alana lazım olan əmlakı satıcıdan mülkiyyət hüququ ilə əldə etməli və lizinq alanın müvəqqəti sahibliyinə və istifadəsinə verməlidir.

Lizinq münasibətləri Mülki Məcəllənin XXXVIII fəsli ilə tənzimlənir və həmin Məcəllənin 747.1-ci maddəsində lizinq müqaviləsinin anlayışı verilmişdir. Həmin maddəyə əsasən, lizinq müqaviləsinə görə, lizinq verən müəyyən əşyanı müqavilə ilə şərtləşdirilmiş müəyyən haqla, müəyyən müddətə və digər şərtlərlə (lizinq alana əmlakı satın almaq hüququnun verilməsi də daxil olmaqla) lizinq alanın istifadəsinə verməyə borcludur. Lizinq alan müəyyənləşdirilmiş dövriliklə muzd ödəməyə borcludur.

Mülki Məcəllənin 747-1-ci maddəsində lizinq müqaviləsinin subyektləri müəyyən olunmuşdur. Məcəllənin 747-1.1-ci maddəsinə əsasən, lizinq müqaviləsinin subyektləri lizinq verən, lizinq alan və satıcıdır (mal verəndir). Mülki Məcəllənin 747-1.3-cü maddəsinə görə, lizinq alan lizinq müqaviləsinə uyğun olaraq lizinq obyektini müəyyən haqla, müəyyən müddətə və şərtlərlə müvəqqəti sahibliyə və istifadəyə qəbul edən hüquqi və ya fiziki şəxsdir.

Məcəllənin 747-1.5-ci maddəsinə uyğun olaraq bu Məcəllə ilə müəyyənləşdirilmiş qaydada və hallarda Azərbaycan Respublikasının istənilən rezidenti və qeyri-rezidenti lizinq müqaviləsinin subyekti ola bilər.

Mülki Məcəllənin 748-2.5-ci maddəsinə əsasən, maliyyə lizinqi zamanı lizinq obyektinə mülkiyyət hüququ, əgər maliyyə lizinqi müqaviləsində ayrı qayda nəzərdə tutulmayıbsa, bütün lizinq ödənişlərinin verilməsi şərti ilə müqavilə müddəti başa çatmazdan əvvəl lizinq alana keçir.

Mülki Məcəllənin yuxarıda qeyd olunan maddələrindən göründüyü kimi, lizinq alan istənilən əmlakı müvəqqəti sahibliyə və istifadəyə qəbul edən hüquqi və ya fiziki şəxsdir. Bununla yanaşı qeyd olunmalıdır ki, Mülki Məcəllənin göstərilən maddələrində lizinq alanın sahibkarlıq fəaliyyəti ilə məşğul olması barədə hər hansı tələb mövcud deyildir.

Beləliklə, mövcud qanunvericiliyə uyğun olaraq, lizinq müqaviləsinə əsasən lizinq alan istənilən fiziki və ya hüquqi şəxs ola bilər və həmin şəxsin sahibkarlıq fəaliyyəti ilə məşğul olması tələb olunmur.

Lizinq verən lizinq müqaviləsinə əsasən cəlb edilmiş və ya özünəməxsus maliyyə vəsaiti hesabına əldə etdiyi və mülkiyyətində olan əşyanı lizinq obyekti kimi lizinq alana müəyyən haqla, müəyyən müddətə və şərtlərlə (mülkiyyət hüququnun lizinq alana keçməsi və ya keçməməsi şərti də daxil olmaqla) müvəqqəti sahibliyə və ya istifadəyə verən hüquqi və ya fiziki şəxsdir. Satıcı (mal verən) alqı-satqı müqaviləsinə əsasən lizinq obyektini lizinq verənə satan hüquqi və ya fiziki şəxsdir (Mülki Məcəllənin 747-1.2 və 747-1.4-cü maddələri).

Mülki Məcəllənin 747.2-ci maddəsinə əsasən, lizinq verən müqavilədə nəzərdə tutulan əmlakı hazırlamağa və ya əldə etməyə borcludur.

Mülki Məcəllənin 747-2-ci maddəsinin tələblərinə görə, lizinqin obyekti Azərbaycan Respublikasının qanunlarına əsasən sərbəst mülki dövriyyədən çıxarılmış və ya mülki dövriyyəsi məhdudlaşdırılmış əşyalar istisna olmaqla, qanunvericiliklə müəyyənləşdirilmiş təsnifat üzrə əsas vəsaitə aid olan daşınar və ya daşınmaz əşyalardır.

Bununla yanaşı, mülki qanunvericilikdə lizinqin formaları və lizinq əməliyyatlarının hüquqi forması da dəqiq müəyyən olunmuşdur. Belə ki, Mülki Məcəllənin 747-3-cü maddəsinə əsasən, lizinqin bu Məcəllə ilə tənzimlənən əsas formalarına daxili və beynəlxalq lizinq aiddir. Daxili lizinq həyata keçirildikdə lizinq verən və lizinq alan Azərbaycan Respublikasının rezidentləridir. Beynəlxalq lizinq həyata keçirildikdə lizinq verən, yaxud lizinq alan (və ya onların hər ikisi) Azərbaycan Respublikasının qeyri-rezidentləridir.

Məcəllənin 747-5-ci maddəsinə görə, lizinq əməliyyatlarının hüquqi forması ya lizinq verənlə lizinq alan arasında bağlanmış lizinq müqaviləsi və lizinq verənlə satıcı arasında bağlanılmış alqı-satqı müqaviləsidir, ya da həmin şəxslər arasında bu Məcəllənin 747-5.2-ci maddəsinə və lizinqlə bağlı digər maddələrinə müvafiq surətdə bağlanılmış üçtərəfli müqavilədir. Lizinqlə əlaqədar bağlanılan alqı-satqı müqaviləsində, bu Məcəllə ilə nəzərdə tutulmuş şərtlərlə yanaşı, aşağıdakılar da göstərilməlidir: lizinq obyekti lizinq verən tərəfindən xüsusi olaraq lizinqə verilmək üçün əldə edilir; lizinq müqaviləsində ayrı hal nəzərdə tutulmayıbsa, lizinq alan lizinq obyektinin satıcısı ilə lizinq verən arasında bağlanılan alqı-satqı müqaviləsindən irəli gələn alıcı hüquqlarına malikdir.

Göründüyü kimi, mövcud qanunvericilikdə lizinq müqaviləsinin əsasən üçtərəfli saziş olması müəyyən olunmuşdur. Lizinq sövdələşməsinin iştirakçıları lizinq verən (lizinq şirkəti), lizinq alan və lizinqə veriləcək avadanlığın satıcısıdır. Lizinq sövdələşməsində ən azı iki müqavilənin bağlanması və ya bir üçtərəfli müqavilənin bağlanması nəzərdə tutulur:

1. Lizinq verən (lizinq şirkəti) və lizinq alan arasında (müştəri) lizinq müqaviləsinin bağlanması - lizinq alanın müraciəti təsdiq edildikdən sonra lizinq verən və lizinq alan arasında lizinq müqaviləsi bağlanır;

2. Alqı-satqı müqaviləsinin bağlanması - lizinq verən və avadanlığın satıcısı (mal verən) arasında alqı-satqı müqaviləsi bağlanır. Lizinq verən satıcı ilə alqı-satqı müqaviləsini lizinq alanın marağında bağlayır. Lizinq verən müqavilədə nəzərdə tutulan əmlakı hazırlamağa və ya əldə etməyə borcludur.

Eyni zamanda, lizinq əməliyyatı özündə həm də satış elementini daşıyır.

Bundan başqa, lizinq verən lizinq müqaviləsi bağlamazdan əvvəl lizinq məqsədi üçün lizinq obyektini əldə edə və ya hazırlaya bilər.

Beləliklə, lizinq müqaviləsinin əsas xüsusiyyətlərindən biri ondan ibarətdir ki, bu müqavilədə üç tərəf iştirak etməlidir. Mövcud mülki

qanunvericilik lizinq əməliyyatlarının aparılmasında satıcının iştirakını vacib şərt kimi göstərir. Lizinqlə əlaqədar satıcı ilə alqı-satqı müqaviləsinin bağlanması mütləqdir. Mülki Məcəllənin 747-5-ci maddəsinin tələbinə əsasən, lizinqlə əlaqədar bağlanmış alqı-satqı müqaviləsində mütləq lizinq obyektinin lizinq verən tərəfindən xüsusi olaraq lizinqə verilmək üçün əldə edildiyi göstərilməlidir.

Bununla yanaşı qeyd olunmalıdır ki, mülki qanunvericilikdə satıcı ilə lizinq verənin eyni şəxs ola bilməsi haqda hər hansı qadağa mövcud deyildir. Əksinə, Mülki Məcəllənin 747.2-ci maddəsinə əsaslanaraq qeyd etmək olar ki, lizinq müqaviləsi çərçivəsində satıcı və lizinq verən müqavilənin ayrı-ayrı tərəfləri olmaqla yanaşı, eyni şəxs ola bilər. Belə ki, Mülki Məcəllənin qeyd olunan maddəsinə əsasən, lizinq verən müqavilədə nəzərdə tutulan əmlakı hazırlamağa və ya əldə etməyə borcludur.

Həmçinin Mülki Məcəllənin 748-2.1-ci maddəsində qeyd edilir ki, lizinq alana müvəqqəti sahibliyə və ya istifadəyə verilmiş lizinq obyekti lizinq verənin mülkiyyətidir və bu maddə lizinq obyektinin lizinqdən əvvəl, yaxud sonra lizinq verənin mülkiyyətində olmasını şərtləndirmir. Göründüyü kimi, mülki qanunvericilik lizinq verən tərəfindən lizinq obyektinin qabaqcadan əldə edilməsini qadağan etməmişdir. Lakin belə halda lizinq verən alqı-satqı müqaviləsi imzalayarkən mütləq onun lizinq məqsədi üçün əldə etdiyini müqavilədə göstərməlidir.

Konstitusiya Məhkəməsinin Plenumu vurğulayır ki, mülki qanunvericilikdə satıcı ilə lizinq verənin eyni şəxs ola bilməsinə dair qadağanın olmaması, eləcə də lizinq verənin müqavilədə nəzərdə tutulan əmlakı hazırlamağa borclu olması Plenuma bu mülki hüquq münasibətləri iştıraкçıları arasında formalaşmış işgüzar adətə və mülki qanunvericiliyin prinsiplərinə əsaslanaraq lizinq münasibətlərini tənzimləyən normaları geniş təfsir etmək imkanı verir.

Beləliklə, mülki qanunvericilik lizinq verən tərəfindən lizinq obyektinin qabaqcadan əldə edilməsini qadağan etməmişdir. Lakin belə halda lizinq verən alqı-satqı müqaviləsi imzalayarkən mütləq onu lizinq məqsədi üçün əldə etdiyini müqavilədə göstərməlidir.

Hüquq ədəbiyyatında lizinqin əsasən 2 növü fərqləndirilir:

1) Əməliyyat (operativ) lizinqi;

2) Maliyyə lizinqi.

Maliyyə lizinqi lizinqin ən geniş yayılan formasıdır. Azərbaycan Respublikasının mülki qanunvericiliyində əsasən maliyyə lizinqi nəzərdə tutulmuşdur. Lakin Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi"ndə qeyd olunur ki, Azərbaycan Respublikasında lizinqin inkişafı üçün, ilk növbədə, vahid qanunun hazırlanması nəzərdən keçirilməli və bu qanunda şirkətlərin operativ lizinq xidmətləri göstərməsinə şərait yaradılmalıdır.

Maliyyə lizinqində avadanlığın uzunmüddətli icarəyə verilməsi və müqavilə müddəti sonunda bu avadanlığın müqavilədə əvvəlcədən müəyyənləşdirilmiş qaydada lizinq alanın mülkiyyətinə keçməsi nəzərdə tutulur. Bu lizinq növündə müqavilələrin müddəti adətən avadanlıqların amortizasiya müddətləri ilə eyni olur. Maliyyə lizinqində avadanlıqları əsasən müştəri (lizinq alan) seçir və lizinq şirkətinə bu avadanlığın alınması üçün sifariş verir. Maliyyə lizinqində avadanlığın cari və əsaslı təmiri lizinq alan tərəfindən öz vəsaiti hesabına həyata keçirilir. Maliyyə lizinqi daha çox bir maliyyələşdirmə növüdür və müştəri tərəfindən seçilən avadanlığın lizinq şirkəti tərəfindən yalnız satın alınmasından ibarətdir.

Maliyyə lizinqinin yuxarıda qeyd olunan izahından aydın olur ki, maliyyə lizinqi əməliyyatı özündə lizinq və alqı-satqı müqavilələrini birləşdirən tam bir əməliyyatdır. ƏDV məqsədləri üçün maliyyə lizinqi əməliyyatı maliyyə xidmətlərinin tərkib hissəsi kimi ƏDV-dən azad edilir.

Belə ki, Vergi Məcəlləsinin 164.1.2-ci maddəsinə görə, maliyyə xidmətlərinin göstərilməsindən ƏDV tutulmur. Vergi Məcəlləsinin 13.2.14.1-ci maddəsində verilmiş maliyyə xidmətinin anlayışına əsasən kreditlərin, maliyyə lizinqi əməliyyatlarının, kredit təminatlarının və pul-kredit əməliyyatlarında hər hansı girov və ya lombard təminatının təqdim edilməsi (yaxud verilməsi) və qaytarılması, o cümlədən krediti və ya təminatı təqdim etmiş şəxsin kreditləri və kredit təminatlarını idarə etməsi maliyyə xidmətlərinə aid edilmişdir.

Belə olan halda istər lizinq müqaviləsinin hər üç tərəfinin ayrı-ayrı şəxs olması, istərsə də satıcı ilə lizinq verənin eyni şəxs olması məsələnin

mahiyyətini dəyişməməlidir. Qeyd olunduğu kimi, lizinq əməliyyatı çərçivəsində satıcı ilə ayrıca bağlanan əmlakın alqı-satqı müqaviləsində də həmin əmlakın məhz lizinq məqsədi üçün alınması barədə müddəanın öz əksini tapması mülki qanunvericilikdə birmənalı olaraq göstərilmişdir.

Lakin maliyyə xidmətləri, o cümlədən, maliyyə lizinqi mənfəət vergisindən azad olunmadığı üçün maliyyə lizinqi əməliyyatları üzrə həm alqı-satqıdan, həm də lizinq müddəti ərzində lizinq alan tərəfindən ödənilən əsas ödənişlərə tətbiq olunan faizlərdən mənfəət vergisi ödənilməlidir.

Vergi Məcəlləsinin 140-cı maddəsi mənfəət vergisinin məqsədləri üçün maliyyə lizinqi hesab edilən əməliyyatları müəyyən etmək məqsədi daşıyır və bu zaman ƏDV-dən fərqli olaraq müqavilə və onun subyektləri deyil, əməliyyatın mahiyyəti əsas götürülür.

Belə ki, Vergi Məcəlləsinin 140.1-ci maddəsinə əsasən, icarəyə verən maddi əmlakı maliyyə lizinqi müqaviləsi üzrə icarəyə verirsə, vergitutma məqsədləri üçün icarəçi əmlakın sahibi, icarə ödəmələri isə icarəçiyə verilmiş ssuda üzrə ödəmələr sayılır.

Aşağıdakı hallarda əmlak icarəsi maliyyə lizinqi sayılır:

- lizinq müqaviləsi ilə icarə müddəti qurtardıqdan sonra əmlakın mülkiyyətə verilməsi nəzərdə tutulur, yaxud icarə müddəti qurtardıqdan sonra icarəçi əmlakı müəyyən edilmiş və ya qabaqcadan güman edilən qiymətlərlə almaq hüququna malikdir, yaxud;
- icarə müddəti icarəyə götürülən əmlakın istismar müddətinin 75 faizindən artıqdır, yaxud;
- icarə müddəti qurtardıqdan sonra əmlakın qalıq dəyəri icarənin əvvəlinə onun bazar qiymətinin 20 faizindən azdır, yaxud;
- icarə haqqının ödəniləcək məbləği əmlakın icarənin əvvəlinə olan bazar qiymətinin ən azı 90 faizinə bərabərdir və ya ondan artıqdır, yaxud;
- icarəyə götürülən əmlak icarəçi üçün sifarişlə hazırlanmışdır və icarə müddəti qurtardıqdan sonra icarəçidən başqa heç kəs tərəfindən istifadə edilə bilməz (Vergi Məcəlləsinin 140.2-ci maddəsi).

Bu Məcəllənin 140.2.4-cü maddəsi aktivin istifadə olunması müddətinin 3/4-ü qurtardıqdan sonra başlanan icarəyə tətbiq edilmir. Maliyyə lizinqi müqaviləsində ssuda ödəmələri üzrə faiz dərəcəsi göstərilmədikdə və ya maliyyə lizinqi həyata keçirən qeyri-rezidentlərə, habelə qarşılıqlı surətdə asılı şəxslərə maliyyə lizinqi üzrə icarə ödəmələrinin cari dəyərini müəyyənləşdirməkdən ötrü istifadə edilən faiz dərəcəsi ödəmələr aid olduğu dövrdə eyni valyuta ilə, oxşar müddətə verilmiş banklararası kredit hərracında olan və ya hərraclar keçirilmədiyi təqdirdə banklararası kreditlər üzrə faizlərin orta səviyyəsinin 125 faizi məbləğində götürülür. Bu maddənin məqsədləri üçün icarəçinin icarəni təzələmək hüququna malik olduğu əlavə müddət icarə müddətinə daxildir (Vergi Məcəlləsinin 140.3, 140.4 və 140.5-ci maddələri).

Qeyd olunmalıdır ki, Vergi Məcəlləsinin 140-cı maddəsində müxtəlif hallarda "lizinq", "maliyyə lizinqi" və "icarə" anlayışlarından istifadə edilmişdir. "İcarə haqqında" Azərbaycan Respublikasının Qanunu və Mülki Məcəllənin müvafiq müddəaları "icarə" ilə "lizinq" anlayışlarını fərqləndirir. Vergi Məcəlləsinin 140-cı maddəsinin ümumilikdə maliyyə lizinqi əməliyyatlarına aid olduğunu, yuxarıda qeyd edilən qanunvericilik aktlarını, maliyyə lizinqinin lizinq əməliyyatlarının tərkibinə aid edildiyini nəzərə alaraq həmin maddədə istifadə olunmuş "icarəyə verən", "əmlakın icarəsi" və "icarəçi" anlayışları müvafiq olaraq "lizinq verən", "lizinq obyekti" və "lizinq alan" kimi başa düşülməlidir.

Göründüyü kimi, müqavilə Mülki Məcəllənin maliyyə lizinqi prinsiplərinə uyğun bağlandıqda bu əməliyyat Vergi Məcəlləsinin 140-cı maddəsinin tələbləri altına düşərək, mənfəət vergisinin ödənilməsi məqsədləri üçün də maliyyə lizinqi hesab edilməlidir. Belə ki, lizinq əməliyyatının maliyyə lizinqi olmasını müəyyən edən Mülki Məcəllənin 748-2.5-ci maddəsinin tələbləri ilə Vergi Məcəlləsinin 140.2.1-ci maddəsinin şərtləri uyğun gəlir.

Vergi Məcəlləsinin 140.6-cı maddəsində isə qeyd edilir ki, icarəyə verən maliyyə lizinqi başlananadək aktivin sahibi olduğu hallarda, bu Məcəllənin 140.1-ci maddəsində göstərilən ssudanın verilməsi rejiminə əlavə olaraq, əqd əmlakı icarəyə verənin satması və icarəçinin alması kimi qiymətləndirilir.

Qeyd olunan maddənin tələblərinə görə, lizinq müqaviləsi üzrə satıcı və lizinq verən ayrı-ayrı şəxs olduğu hallarda, Vergi Məcəlləsinin 140-cı maddəsi satıcıya münasibətdə şamil edilmir, çünki həmin maddə yalnız icarəyə verənə (lizinq verənə) və

icarəçiyə (lizinq alana) münasibətdə tətbiq edilməlidir. Satıcı mənfəət vergisi ödəyicisi olduğu təqdirdə, satış Vergi Məcəlləsinin 142-ci maddəsinə əsasən ayrıca mənfəət vergisinə cəlb edilməlidir.

Lakin bu maddənin tələblərinə görə, lizinq müqaviləsi üzrə satıcı və lizinq verən eyni şəxs olduğu hallarda, Vergi Məcəlləsinin 140.1-140.5-ci maddələri satıcıya münasibətdə tətbiq edilməməli, çünki satıcı və lizinq verənin eyni şəxs olmasına baxmayaraq bunlar müqavilə üzrə ayrı-ayrı tərəflər hesab olunur və həmin Məcəllənin qeyd olunan maddələri yalnız icarəyə verənə (lizinq verənə) və icarəçiyə (lizinq alana) münasibətdə tətbiq edilir.

Beləliklə, Vergi Məcəlləsinin 140.6-cı maddəsinin məqsədi ondan ibarətdir ki, lizinq verən həm satıcı kimi Vergi Məcəlləsinin 142-ci maddəsinə müvafiq olaraq mənfəət vergisinə cəlb edilməli, həm də icarəyə verən (lizinq verən) kimi həmin Məcəllənin 140.1-140.5-ci maddələrinə müvafiq olaraq mənfəət vergisinə cəlb edilməlidir.

Qeyd olunanları nəzərə alaraq, Konstitusiya Məhkəməsinin Plenumu aşağıdakı nəticələrə gəlir:

- Mülki Məcəllənin 747-1.3-cü maddəsinin tələbləri baxımından lizinq obyektinin sahibkarlıq fəaliyyəti ilə məşğul olmayan hüquqi və ya fiziki şəxsə verilməsi istisna edilmir;

- Mülki Məcəllənin 747-5-ci maddəsinə müvafiq olaraq, lizinq müqaviləsi üzrə lizinq verən satıcı (mal verən) ilə alqı-satqı müqaviləsi bağlamalıdır. Alqı-satqı müqaviləsi lizinq müqaviləsindən əvvəl bağlana bilər, bu zaman həmin müqavilənin xüsusi olaraq lizinq məqsədləri üçün bağlandığı göstərilməlidir.

Mülki qanunvericilikdə lizinq müqaviləsi üzrə satıcı və lizinq verənin müqavilənin ayrı-ayrı tərəfləri olması ilə yanaşı, eyni şəxs ola bilməsi istisna edilmir;

- Vergi Məcəlləsinin 140.6-cı maddəsinin tələblərinə görə, icarəyə verənlə (lizinq verənlə) satıcı vergitutma məqsədləri üçün eyni şəxs ola bilər. Bu zaman lizinq verən həm satıcı kimi lizinq obyektinin təqdim edilməsi qismində Vergi Məcəlləsinin 142-ci maddəsinə müvafiq olaraq mənfəət vergisinə cəlb edilməli, həm də icarəyə verən (lizinq verən) kimi həmin Məcəllənin 140.1-140.5-ci maddələrinə müvafiq olaraq mənfəət vergisinə cəlb edilərək həmin Məcəllənin 135-ci maddəsinə əsasən faiz gəlirlərindən mənfəət vergisi ödəməlidir.

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsini və "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 60, 62, 63, 65-67 və 69-cu maddələrini rəhbər tutaraq, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**QƏRARA ALDI:**

1. Azərbaycan Respublikası Mülki Məcəlləsinin 747-1.3-cü maddəsinin tələbləri baxımından lizinq obyektinin sahibkarlıq fəaliyyəti ilə məşğul olmayan hüquqi və ya fiziki şəxsə verilməsi istisna edilmir.

2. Azərbaycan Respublikası Mülki Məcəlləsinin 747-5-ci maddəsinə müvafiq olaraq, lizinq müqaviləsi üzrə lizinq verən satıcı (mal verən) ilə alqı-satqı müqaviləsi bağlamalıdır. Alqı-satqı müqaviləsi lizinq müqaviləsindən əvvəl bağlana bilər, bu zaman həmin müqavilənin xüsusi olaraq lizinq məqsədləri üçün bağlandığı göstərilməlidir.

Mülki qanunvericilikdə lizinq müqaviləsi üzrə satıcı və lizinq verənin müqavilənin ayrı-ayrı tərəfləri olması ilə yanaşı, eyni şəxs ola bilməsi istisna edilmir.

3. Azərbaycan Respublikası Vergi Məcəlləsinin 140.6-cı maddəsinin tələblərinə görə, icarəyə verənlə (lizinq verənlə) satıcı vergitutma məqsədləri üçün eyni şəxs ola bilər. Bu zaman lizinq verən həm satıcı kimi lizinq obyektinin təqdim edilməsi qismində Vergi Məcəlləsinin 142-ci maddəsinə müvafiq olaraq mənfəət vergisinə cəlb edilməli, həm də icarəyə verən (lizinq verən) kimi həmin Məcəllənin 140.1-140.5-ci maddələrinə müvafiq olaraq mənfəət vergisinə cəlb edilərək həmin Məcəllənin 135-ci maddəsinə əsasən faiz gəlirlərindən mənfəət vergisi ödəməlidir.

4. Qərar dərc olunduğu gündən qüvvəyə minir.

5. Qərar "Azərbaycan", "Respublika", "Xalq qəzeti", "Bakinski raboçi" qəzetlərində, "Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı"nda dərc edilsin.

6. Qərar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir edilə bilməz.

**Sədr:**
**Fərhad Abdullayev**

*Bakı şəhəri, 12 yanvar 2017-ci il*

# AZƏRBAYCAN RESPUBLİKASI ADINDAN

**Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 54.3-cü maddəsinin şərh edilməsinə dair**

# AZƏRBAYCAN RESPUBLİKASI KONSTİTUSİYA MƏHKƏMƏSİ PLENUMUNUN QƏRARI

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Fərhad Abdullayev (sədr),

Sona Salmanova, Südabə Həsənova (məruzəçi-hakim), Rövşən İsmayılov, Ceyhun Qaracayev, Rafael Qvaladze, Mahir Muradov, İsa Nəcəfov və Kamran Şəfiyevdən ibarət tərkibdə,

məhkəmə katibi Fəraid Əliyevin,

maraqlı subyektlərin nümayəndələri Sumqayıt Apellyasiya Məhkəməsinin hakimi Vidadi Cəfərovun və Azərbaycan Respublikası Milli Məclisi Aparatının İnzibati və hərbi qanunvericilik şöbəsinin baş məsləhətçisi Eldar Əsgərovun,

ekspert Bakı Dövlət Universitetinin Konstitusiya hüququ kafedrasının dosenti, hüquq üzrə fəlsəfə doktoru Sübhan Əliyevin,

mütəxəssislər Azərbaycan Respublikası Ali Məhkəməsinin Cinayət Kollegiyasının sədri Şahin Yusifovun və Azərbaycan Respublikası Baş Prokurorluğunun Elmi-Tədris Mərkəzinin rəisi Nazir Bayramovun, Sumqayıt şəhər prokuroru Sərdar İmanovun iştirakı ilə,

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsinə müvafiq olaraq xüsusi konstitusiya icraatı üzrə açıq məhkəmə iclasında Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 54.3-cü maddəsinin şərh edilməsinə dair Sumqayıt Apellyasiya Məhkəməsinin müraciəti əsasında konstitusiya işinə baxdı.

İş üzrə hakim S.Həsənovanın məruzəsini, maraqlı subyektlərin nümayəndələrinin və mütəxəssislərin çıxışlarını, ekspertin rəyini dinləyib, iş materiallarını araşdırıb müzakirə edərək, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**MÜƏYYƏN ETDİ:**

Sumqayıt Apellyasiya Məhkəməsi Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə (bundan sonra - Konstitusiya Məhkəməsi) müraciət edərək Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin (bundan sonra - İnzibati Xətalar Məcəlləsi) 54.3-cü maddəsinin şərh edilməsini xahiş etmişdir.

Müraciətdə göstərilir ki, 18 aprel 2016-cı il tarixində İ.Abbasova Sumqayıt şəhər Polis İdarəsinin 3-cü Polis Bölməsinə müraciət edərək qardaşı V.Abbasov tərəfindən döyüldüyünü göstərmiş, onun cinayət məsuliyyətinə cəlb edilməsini xahiş etmişdir.

Həmin müraciət üzrə polis bölməsində təhqiqat aparılmış və Azərbaycan Respublikası Cinayət Prosessual Məcəlləsinin (bundan sonra - Cinayət Prosessual Məcəllə) 39.1.2-ci maddəsinə əsasən cinayət işinin başlanmasının rədd edilməsi barədə qərar qəbul edilmişdir.

Sonradan polis bölməsi tərəfindən V.Abbasov barəsində 7 iyun 2016-cı il tarixli inzibati xəta haqqında protokol tərtib edilərək baxılması üçün Sumqayıt Şəhər Məhkəməsinə göndərilmişdir.

Sumqayıt Şəhər Məhkəməsinin 7 iyun 2016-cı il tarixli qərardadı ilə V.Abbasov barəsində İnzibati Xətalar Məcəlləsinin 157-ci maddəsi ilə tərtib edilmiş inzibati xəta haqqında protokol və digər sənədlər inzibati xəta haqqında protokol tərtib edilməzdən əvvəl zərər çəkmiş şəxsin ərizəsinin alınmaması əsası ilə onu tərtib etmiş orqana - Sumqayıt şəhər Polis İdarəsinin 3-cü Polis Bölməsinə qaytarılmışdır.

Sumqayıt şəhər prokuroru apellyasiya protesti verərək Sumqayıt Şəhər Məhkəməsinin həmin qərardadının ləğv edilməsini və yeni qərar qəbul edilməsini xahiş etmişdir.

Sumqayıt Apellyasiya Məhkəməsi prokurorluq orqanlarından belə xarakterli protestlərin daxil olması hallarının artmasını və prokurorun İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq belə qərardaddan protest vermək hüququnun olması ilə bağlı qeyri-müəyyənliyi nəzərə alaraq Konstitusiya Məhkəməsinə müraciət etmək qərarına gəlmişdir. Müraciətedənin qənaətinə görə, prokurorun iştirak etdiyi işlərlə yanaşı, daha hansı qərardadlardan protest vermək hüququnun olması qanunvericilikdə aydın müəyyən edilməmişdir.

Konstitusiya Məhkəməsinin Plenumu müraciətlə əlaqədar aşağıdakıları qeyd etməyi zəruri hesab edir.

Azərbaycan Respublikası Konstitusiyasının (bundan sonra - Konstitusiya) 12-ci maddəsində insan və vətəndaş hüquqlarının və azadlıqlarının, Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədi kimi müəyyən edilmişdir.

Dövlət orqanları insan hüquq və azadlıqlarının qanunsuz məhdudlaşdırılmasından çəkinməklə yanaşı, cəmiyyətdə qanunçuluğun təmin edilməsini həyata keçirməlidirlər. Konstitusiyanın 71-ci maddəsinin I hissəsinə görə, Konstitusiyada təsbit edilmiş insan və vətəndaş hüquqlarını və azadlıqlarını gözləmək və qorumaq qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının borcudur. Konstitusiyanın bu norması insan hüquq və azadlıqlarının müdafiə vasitələri ilə yanaşı, həmin hüquqların təminatı kimi cinayət, inzibati və digər repressiv və preventiv hüquq sahələrinin qoruyucu normalarını da nəzərdə tutur.

İnzibati idarəçilik sahəsində inzibati münasibətlərin qoruyucu normaları 1 mart 2016-cı il tarixindən qüvvəyə minmiş İnzibati Xətalar Məcəlləsində əks olunmuşdur.

Həmin Məcəllənin 2-ci maddəsinə görə, Azərbaycan Respublikasının inzibati xətalar qanunvericiliyinin vəzifələri insan və vətəndaş hüquqlarını və azadlıqlarını, onların sağlamlığını, əhalinin sanitariya-epidemioloji salamatlığını, ictimai mənəviyyatı, mülkiyyəti, şəxslərin iqtisadi maraqlarını, ictimai qaydanı və ictimai təhlükəsizliyi, ətraf mühiti, idarəçilik qaydalarını qorumaqdan, qanunçuluğu möhkəmləndirməkdən və inzibati xətaların qarşısını almaqdan ibarətdir.

Bu Məcəllə insan və vətəndaş hüquqlarının və azadlıqlarının dövlət orqanları (vəzifəli şəxslər) tərəfindən pozulmasının qarşısının alınmasını və onlara hörmət olunmasını təmin edir (İnzibati Xətalar Məcəlləsinin 5.2-ci maddəsi).

İnzibati Xətalar Məcəlləsi insan və vətəndaş hüquqlarına və azadlıqlarına hörmət edilməsi, qanunçuluq, qanun qarşısında bərabərlik, təqsirsizlik prezumpsiyası, ədalətlilik və inzibati xətaların qarşısının alınması prinsiplərinə əsaslanır (İnzibati Xətalar Məcəlləsinin 4-cü maddəsi).

Məcəllənin maddi normaları xəta növünü müəyyən etməklə inzibati idarəçilik sahəsində hər bir subyektin hüquq və qanuni maraqlarını təmin edir. İnzibati xətalar (inzibati delikt) qanunvericiliyi səlahiyyətli orqanla fiziki, hüquqi və vəzifəli şəxslər arasında inzibati xətalarla bağlı yaranan mübahisələri tənzimləyir və bu münasibətlərdə əsas subyekt kimi səlahiyyətli dövlət orqanı çıxış edir.

İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan orqanlar (vəzifəli şəxslər) İnzibati Xətalar Məcəlləsinin 40-cı maddəsində göstərilmişdir. Bu normaya əsasən, inzibati xətalar haqqında işlərə rayon (şəhər) məhkəmələri, yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar (kollegial orqan), müvafiq icra hakimiyyəti orqanları, Mərkəzi Bank, müvafiq icra hakimiyyəti orqanının yaratdığı qurum (vəzifəli şəxslər) baxırlar.

Səlahiyyətli orqan (vəzifəli şəxs) xəta törətmiş subyektə qarşı məsuliyyət tədbirlərini tətbiq edərkən inzibati xarakterli məcburetmə səlahiyyətlərinə malikdir. İnzibati Xətalar Məcəlləsinin 42.1-ci maddəsinə müvafiq olaraq, inzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslər bu Məcəllənin Xüsusi hissəsində nəzərdə tutulmuş inzibati tənbehləri yalnız xidməti vəzifələrinin icrası zamanı tətbiq edə bilərlər.

İnzibati xətalar qanunvericiliyinin tələbinə görə, inzibati tənbeh tətbiq edən orqan və vəzifəli şəxslərdən fərqli olaraq, rayon (şəhər) məhkəmələri nisbətən ağır sanksiya (tənbeh) ilə nəticələnən inzibati xətalara dair işlərə baxırlar. Baxılması rayon (şəhər) məhkəmələrinə aid edilən inzibati xətalar haqqında işlər İnzibati Xətalar Məcəlləsinin 43-cü maddəsində nəzərdə tutulmuşdur.

Eyni zamanda, inzibati məsuliyyətə cəlb edilməsi mümkün sayılan subyektlərin dairəsi İnzibati Xətalar Məcəlləsinin 16, 17 və 18-ci maddələrində göstərilmişdir. Bu subyektlərə fiziki, vəzifəli, habelə hüquqi şəxslər aid edilir.

İnzibati xətalar haqqında işlərə baxılmasının prosessual qaydaları isə bu Məcəllənin III və IV bölmələrində müəyyən edilmişdir.

Göründüyü kimi, inzibati xətalar qanunvericiliyi inzibati xətalara dair işlər üzrə icraatın həyata keçirilməsinin prosessual qaydalarını tənzimləyərək inzibati xətalar üzrə işlərə baxmağa səlahiyyəti olan orqanların (vəzifəli şəxslərin) və inzibati məsuliyyətə cəlb edilməsi mümkün sayılan subyektlərin dairəsini dəqiq müəyyən etmişdir.

Azərbaycan Respublikasının inzibati xətalar qanunvericiliyinin vəzifələrinin həyata keçirilməsində qanunçuluq prinsipi xüsusi əhəmiyyətə malikdir. İnzibati Xətalar Məcəlləsinin qanunçuluq prinsipindən bəhs edən 6-cı maddəsinə görə, inzibati xətaya görə inzibati tənbeh bu Məcəlləyə uyğun olaraq tətbiq edilir. İnzibati xəta haqqında iş üzrə icraatın təmin olunması tədbirləri tətbiq edilərkən qanunvericiliyin tələblərinə əməl olunması yuxarı orqanların və vəzifəli şəxslərin idarə nəzarəti ilə, məhkəmə və prokuror nəzarəti ilə və şikayət etmək hüququ ilə təmin edilir.

İnzibati Xətalar Məcəlləsində prokuror nəzarətinə xüsusi yer verilmişdir. Belə ki, Məcəllənin 54.1-ci maddəsinə əsasən, prokuror inzibati xətalar haqqında işlər üzrə icraat zamanı baş vermiş qanun pozuntusunu aradan qaldırmaq üçün vaxtında tədbirlər görür və inzibati xətalar haqqında işlər üzrə icraatın aparılmasında Konstitusiyanın və qanunların tətbiqinə və icrasına prokuror nəzarətini həyata keçirir.

İnzibati xətalara dair işlər üzrə icraatda qanunçuluğun təmin edilməsində prokuror nəzarətinin həyata keçirilməsi Konstitusiyanın 133-cü maddəsinin müddəalarına əsaslanır.

Konstitusiyanın 133-cü maddəsinin I hissəsinə əsasən, Azərbaycan Respublikasının Prokurorluğu qanunla nəzərdə tutulmuş qaydada və hallarda qanunların icra və tətbiq olunmasına nəzarət edir; qanunla nəzərdə tutulmuş hallarda cinayət işləri başlayır və istintaq aparır; məhkəmədə dövlət ittihamını müdafiə edir; məhkəmədə iddia qaldırır; məhkəmə qərarlarından protest verir.

"Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununun (bundan sonra - "Prokurorluq haqqında" Qanun) 4-cü maddəsində prokurorluğun digər fəaliyyət istiqamətləri ilə yanaşı, məhkəmədə iddia qaldırmaq, mülki və iqtisadi mübahisələrə dair işlərə baxılmasında iddiaçı kimi iştirak etmək; məhkəmədə cinayət işlərinə baxılmasında tərəf kimi iştirak etmək, dövlət ittihamını müdafiə etmək; məhkəmə qərarlarından protest vermək səlahiyyəti də göstərilmişdir.

Həmin Qanunun 27-ci maddəsinə görə, prokuror prosessual qanunvericilikdə nəzərdə tutulmuş qaydada və hallarda məhkəmə qərarlarından protest verir. Protest prokurorun iştirak etdiyi iş üzrə məhkəmə qərarından onun yuxarı məhkəməyə verdiyi şikayətdir və öz hüquqi statusuna, hüquqi nəticələrinə görə digər tərəfin şikayətinə bərabər tutulur.

İnzibati xətalara dair işlər üzrə icraat zamanı prokuror nəzarətinin hədləri İnzibati Xətalar Məcəlləsi ilə dəqiq müəyyən edilmişdir.

İnzibati Xətalar Məcəlləsinin 54.2-ci maddəsində konkret inzibati xəta növləri üzrə icraatın prokuror tərəfindən başlanması müəyyən edilmişdir. Həmin maddəyə görə, bu Məcəllənin 191.1, 195.1, 197.3, 197.4, 197.5, 205, 249, 284.2, 339.2 - 339.5, 340.2, 341, 376, 399, 410.3, 531, 558.2, 558.3, 559, 563.2, 567, 568, 569, 573, 594-1, 595.2, 596, 601 və 606.1-ci maddələrində nəzərdə tutulan inzibati xətalar haqqında işlər üzrə icraatın başlanması haqqında qərar prokuror tərəfindən qəbul edilir. Prokuror bu Məcəllənin 99.3-cü maddəsinə əsasən digər inzibati xətalar haqqında işlər üzrə də icraatın başlanması haqqında qərar qəbul etmək hüququna malikdir.

Həmin Məcəllənin 99.1 və 99.2-ci maddələrində inzibati xəta hadisəsinin mövcudluğunu göstərən kifayət qədər halların səlahiyyətli vəzifəli şəxs tərəfindən bilavasitə və ya xüsusi texniki vasitələrin köməyi ilə aşkar edilməsi; dövlət orqanlarından və təşkilatlarından və ya bələdiyyələrdən məlumatların daxil olması; fiziki və ya hüquqi şəxslər tərəfindən təqdim edilən, yaxud kütləvi informasiya vasitələrində dərc olunmuş məlumatlar inzibati xəta haqqında iş üzrə icraata başlamağa səbəb kimi göstərilmişdir. Məlumatlara inzibati xəta haqqında iş üzrə icraata başlamaq səlahiyyəti olan vəzifəli şəxs tərəfindən baxılır. Həmin məlumatlarda inzibati xətanın əlamətlərinin olması və inzibati xəta haqqında iş üzrə icraatı rədd edən halların olmaması inzibati xəta haqqında işin başlanmasına əsasdır.

Bu Məcəllənin 99.1-ci maddəsində göstərilən səbəblərdən biri və bu Məcəllənin 99.2-ci maddəsində göstərilən kifayət qədər əsaslar olduqda, səlahiyyətli vəzifəli şəxs tərəfindən inzibati xəta haqqında iş üzrə icraat başlanılır (İnzibati Xətalar Məcəlləsinin 99.3-cü maddəsi).

İnzibati Xətalar Məcəlləsinin 54.2-ci maddəsi-

nin birinci cümləsində sadalanan inzibati xətaların təhlili göstərir ki, dövlət orqanları və ya təşkilatları, habelə onların vəzifəli şəxsləri tərəfindən üzərlərinə qoyulmuş funksiyaların yerinə yetirilməsi zamanı dövlət mənafelərinə, insanların hüquq və azadlıqlarına zərər vuran inzibati xəta törədildikdə prokuror bu inzibati xətalar üzrə icraatın başlanması haqqında qərar qəbul edir.

Məcəllənin 54.4-cü maddəsinə müvafiq olaraq, prokuror bu Məcəllənin 99.1.2 və 99.1.3-cü maddələrində nəzərdə tutulan məlumatlara baxaraq, on beş gün müddətində inzibati xətalar haqqında işlər üzrə icraatın başlanması haqqında qərar və ya inzibati xəta haqqında işin başlanmasının rədd edilməsi haqqında əsaslandırılmış qərardad qəbul edir. Qərardadın surəti məlumatları vermiş şəxslərə göndərilir. Həmin qərardaddan onun rəsmi qaydada verildiyi vaxtdan on gün müddətində yuxarı prokurora və ya məhkəməyə şikayət verilə bilər.

Göründüyü kimi, inzibati xətalar qanunvericiliyi prokurora qanunçuluğun təmin edilməsi məqsədilə Məcəllənin 99.1-99.3-cü maddələrində nəzərdə tutulmuş hallarda da inzibati xəta haqqında iş üzrə icraatın başlanması və ya bu icraatın başlanmasının rədd edilməsi haqqında qərar qəbul etmək hüququ vermişdir.

Bununla yanaşı, İnzibati Xətalar Məcəlləsinin 54.6-cı maddəsində qeyd edilir ki, yetkinlik yaşına çatmayanlar barəsində inzibati xətalar haqqında, habelə öz təşəbbüsü ilə başlanmış inzibati xətalar haqqında işlərin baxılmasının yeri və vaxtı prokurora bildirilir. Həmin işə prokurorun iştirakı olmadan yalnız o hallarda baxıla bilər ki, işə baxılmasının yeri və müddətinin ona vaxtında bildirilməsi barədə məlumat olsun və ya işə baxılmasını təxirə salmaq haqqında ondan vəsatət daxil olmasın.

Eyni zamanda, inzibati xətalar qanunvericiliyi prokurorun inzibati xətalara dair işlər üzrə məhkəmə icraatında iştirakının hədlərini dəqiq müəyyən etmişdir.

Belə ki, Məcəllənin 54.3-cü maddəsinə görə, prokuror, həmçinin inzibati xətalar haqqında işlərin baxılmasında iştirak etmək, işin baxılması zamanı baş verən məsələlər üzrə rəy və ya vəsatət vermək, inzibati xəta haqqında iş üzrə qəbul edilən qərardan və ya qərardaddan protest vermək hüququna malikdir.

Göründüyü kimi, prokurorun digər hüquqları ilə yanaşı, İnzibati Xətalar Məcəlləsinin 54.3-cü maddəsində daha üç hüququ nəzərdə tutulmuşdur: inzibati xətalara dair işlərin məhkəmədə baxılmasında iştirak etmək; işin baxılması zamanı rəy və ya vəsatət vermək; inzibati xəta haqqında iş üzrə qəbul edilən qərardan və ya qərardaddan protest vermək.

Qeyd olunmalıdır ki, İnzibati Xətalar Məcəlləsinin prokurorun səlahiyyətlərini nəzərdə tutan 54.1-ci maddəsi və prokurorun hüquqlarını müəyyən edən 54.3-cü maddəsi bir-biri ilə sistemli əlaqədə olan və normativ vahidliyi ilə xarakterizə olunan müddəalardır.

Belə ki, prokuror yalnız inzibati xətalar haqqında işlər üzrə icraatı başladıqda (qərar qəbul etdikdə) həmin işə məhkəmədə baxılmasında iştirak etmək, rəy və ya vəsatət vermək, nəticə ilə razılaşmadıqda həmin iş üzrə çıxarılmış məhkəmə qərarından və ya qərardadından protest vermək hüququ əldə edir.

Bununla yanaşı, prokurorun məhkəmə qərarlarından protest vermək hüququ həmin Məcəllənin 128.1-ci maddəsində də müəyyən edilmişdir. Bu normaya görə, inzibati xəta haqqında iş üzrə barəsində qərar çıxarılmış fiziki şəxs, yetkinlik yaşına çatmayanların qanuni nümayəndəsi, hüquqi şəxsin nümayəndəsi, zərər çəkmiş şəxs, müdafiəçi və nümayəndə, həmçinin bu Məcəllənin 43.2-ci maddəsində nəzərdə tutulan vəzifəli şəxs inzibati xəta haqqında iş üzrə qərardan şikayət, prokuror isə protest verə bilər.

Konstitusiya Məhkəməsinin Plenumu "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 128.1-ci maddəsinin şərhinə dair" 2 noyabr 2016-cı il tarixli Qərarında belə nəticəyə gəlmişdir ki, həmin Məcəllənin 128.1-ci maddəsində şikayət vermək hüququ olan subyektlərin dairəsi dəqiq göstərildiyinə görə geniş təfsir edilə bilməz və yalnız həmin maddədə sadalanan şəxslər inzibati xəta haqqında iş üzrə qərardan şikayət, prokuror isə protest verə bilər.

Göstərilənləri nəzərə alaraq Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, İnzibati Xətalar Məcəlləsinin 54.3-cü maddəsinə uyğun olaraq prokuror inzibati xətalar haqqında işlərin baxılmasında iştirak etdikdə həmin işlər üzrə qəbul olunmuş məhkəmə qərarından və ya qərardadlarından yuxarı instansiya məhkəməsinə protest verə bilər.

Konstitusiya Məhkəməsi Plenumunun bu mövqeyi ölkəmizdə yeni Konstitusiyanın qəbulundan sonra həyata keçirilən məhkəmə-hüquq isla-

hatlarına da uyğun gəlir. Belə ki, ölkəmizdə hüquqi dövlət və demokratik cəmiyyətin tələblərinə cavab verən və hüquq-mühafizə orqanlarının fəaliyyətini tənzimləyən yeni qanunvericilik aktları, o cümlədən Cinayət, Cinayət Prosessual, Mülki, Mülki Prosessual, İnzibati Xətalar və sair Məcəllələr qəbul edilmişdir. Yeni qanunvericilikdə əvvəlki sovet qanunvericiliyinin bir çox müddəalarından imtina olunmuş, prokuror nəzarəti institutunun mahiyyəti dəyişdirilmişdir.

Mülki mühakimə icraatında prokurorun iştirakı məhdudlaşdırılaraq yalnız xüsusi icraat işləri üzrə nəzərdə tutulmuşdur. Belə ki, Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin (bundan sonra - Mülki Prosessual Məcəllə) 306.3-cü maddəsinə görə, dövlət idarə və təşkilatlarının və ya təsisçiləri dövlət və ya dövlət idarələri, yaxud təşkilatları olan hüquqi şəxslərin müvafiq müraciəti olduğu halda dövlət mənafeyinin müdafiəsi üçün prokuror mülkiyyət hüququ üzrə əmlaka sahiblik, ondan istifadə və onun barəsində sərəncam vermək haqqında işlər üzrə və daşınar əşyanın sahibsiz hesab edilməsi və daşınmaz əşya üzərində dövlət mülkiyyəti hüququnun tanınması haqqında işlər üzrə ərizə verə bilər.

Mülki Prosessual Məcəllənin 50.2-ci maddəsinə əsasən, özünün və ya başqasının mənafeyi naminə iddia qaldırmış fiziki və hüquqi şəxslər, habelə dövlət idarə və təşkilatlarının və ya təsisçisi dövlət və ya dövlət idarəsi, yaxud təşkilatı olan hüquqi şəxslərin müvafiq müraciəti olduğu hallarda dövlət mənafeyinin müdafiəsi üçün iddia qaldırmış prokuror iddiaçılar hesab edilirlər.

Prokuror yuxarıda göstərilən hallarda məhkəmə baxışında iddiaçı və ya ərizəçi olarsa məhkəmə aktlarından protest verə bilər. Mülki Prosessual Məcəllənin 357.3-cü maddəsinə müvafiq olaraq, prokurorun protesti iştirak etdiyi iş üzrə onun tərəfindən apellyasiya instansiyası məhkəməsinə verilən şikayətdir və öz hüquqi mahiyyətinə, hüquqi nəticələrinə görə apellyasiya şikayətinə bərabər tutulur.

Cinayət Prosessual Məcəllənin 383.2-ci maddəsinə əsasən isə apellyasiya protesti vermək hüququna onun gəldiyi nəticələrin və təkliflərin nəzərə alınmadığı hissədə birinci instansiya məhkəməsində işə baxılmasında iştirak etmiş dövlət ittihamçısı malikdir.

Qeyd olunmalıdır ki, qanunverici prokurorluq orqanlarının fəaliyyətini ifadə etmək üçün "prokuror nəzarəti" terminindən istifadə etsə də, həmin terminin məzmununu açıqlamamışdır. Lakin prokuror nəzarətinin mahiyyəti və hədləri konkret olaraq sahəvi qanunvericilik aktlarında, baxılan məsələ ilə bağlı isə İnzibati Xətalar Məcəlləsində müəyyən edilmişdir.

Prosessual qanunvericilik, bir qayda olaraq, məhkəmə aktlarından şikayətin və ya protestin verilməsini şəxsin prosesdə tərəf olmasından asılı etmişdir. İnzibati xətalara dair işlər üzrə prokurorun protest vermək hüququ digər prosessual qanunvericiliklərdə olduğu kimi onun həmin prosesdə iştirakı ilə əlaqələndirilmişdir.

Göründüyü kimi, inzibati xətalar, mülki və cinayət prosessual qanunvericiliyin, eləcə də "Prokurorluq haqqında" Qanunun normaları prokurorun məhkəmə qərarlarından protest vermək hüququnu yalnız onun məhkəmədə konkret işin baxılmasında iştirakı ilə şərtləndirir.

Bununla yanaşı qeyd olunmalıdır ki, 1 sentyabr 2000-ci ildən qüvvəyə minmiş Cinayət Prosessual Məcəlləyə xüsusi icraatlar qaydasında "Məhkəmə nəzarətinin həyata keçirilməsi" adlı LII fəsil əlavə edilmişdir.

Cinayət Prosessual Məcəllənin 442.1-ci maddəsinə əsasən, məhkəmə nəzarəti istintaq hərəkətlərinin məcburi aparıldığı, prosessual məcburiyyət tədbirinin tətbiq edildiyi və ya əməliyyat-axtarış tədbirinin həyata keçirildiyi yer üzrə səlahiyyəti daxilində müvafiq birinci instansiya məhkəməsi tərəfindən həyata keçirilir.

Məhkəmə nəzarəti, eyni zamanda, "Prokurorluq haqqında" Qanunun 45-ci maddəsində də əksini tapmışdır. Həmin maddəyə əsasən, Konstitusiyada nəzərdə tutulmuş insan və vətəndaş hüquqlarını və azadlıqlarını məhdudlaşdıran prosessual hərəkətlərin prokurorluq tərəfindən həyata keçirilməsinə qanunla müəyyən edilmiş qaydada və hallarda məhkəmənin qərarına əsasən yol verilir.

Konstitusiya Məhkəməsinin Plenumu yuxarıda göstərilən qanunvericilik aktlarını təhlil edərək belə qənaətə gəlir ki, inzibati xətalara dair işlər üzrə prokuror nəzarəti əvvəlki qanunvericilikdən fərqli olaraq heç də məhkəmələrin fəaliyyətinə, məhkəmələr tərəfindən inzibati xətalara dair işlərə baxılması zamanı Konstitusiyanın və qanunların tətbiqinə və icrasına nəzarət kimi qəbul edilməməlidir.

Qeyd olunmalıdır ki, İnzibati Xətalar Məcəlləsində nəzərdə tutulan Konstitusiyanın və qanunların tətbiqinə və icrasına prokuror nəzarəti əsasən inzibati xətalara dair işlər üzrə icraatla bağlı müva-

fiq icra hakimiyyəti orqanlarının fəaliyyətini əhatə etməklə bu fəaliyyətin həyata keçirilməsi zamanı yol verilmiş qanun pozuntularının vaxtında aradan qaldırılması üçün tədbirlərin görülməsini ehtiva edir.

Analoji məsələ üzrə Rusiya Federasiyasının İnzibati Xətalar Məcəlləsinin 24.6-cı maddəsi müəyyən etmişdir ki, Rusiya Federasiyasının Baş Prokuroru və onun tərəfindən təyin edilən prokurorlar öz səlahiyyətləri dairəsində inzibati xətalara dair işlər üzrə icraatda, məhkəmənin icraatında olan işlər istisna olmaqla, Konstitusiyanın və qanunların tətbiqinə və icrasına nəzarəti həyata keçirirlər.

Göründüyü kimi, Azərbaycan Respublikasının inzibati xətalar qanunvericiliyində olduğu kimi Rusiya Federasiyasının qanunvericiliyində də prokuror nəzarəti məhkəmə icraatında olan işləri əhatə etmir.

Lakin Azərbaycan Respublikası inzibati xətalar qanunvericiliyindən fərqli olaraq, Rusiya Federasiyasının İnzibati Xətalar Məcəlləsi prokurorun işdə iştirak edib-etməməsindən asılı olmayaraq inzibati xətalara dair iş üzrə qərarlardan protest vermək hüququnu nəzərdə tutmuşdur (Rusiya Federasiyasının İnzibati Xətalar Məcəlləsinin 25.11-ci maddəsi).

Bununla yanaşı, Konstitusiya Məhkəməsinin Plenumu qeyd edir ki, prokurorun iştirak etmədiyi inzibati xətalara dair işlər üzrə çıxarılmış məhkəmə qərarlarından protest vermək hüququnun tanınması Konstitusiyanın 127-ci maddəsində nəzərdə tutulan hakimlərin müstəqilliyi, ədalət mühakiməsinin həyata keçirilməsinin şərtləri, eləcə də tərəflərin hüquq bərabərliyi və çəkişmə prinsiplərinin pozulması və onların hüquqlarına, habelə məhkəmələrin müstəqil şəkildə fəaliyyətinə müdaxilə kimi qiymətləndirilə bilər.

Göstərilənlərlə yanaşı Konstitusiya Məhkəməsinin Plenumu məhkəmələrin diqqətinə bir daha çatdırır ki, inzibati xətalara dair işlərə sadələşdirilmiş qaydada baxılmasını, inzibati xəta törətmiş şəxs barəsində qanunvericiliyin tələbinə görə yalnız üç ay müddətində inzibati tənbeh tətbiq edilməsinin mümkünlüyünü və tərtib edilmiş materialların tamamlanmasının bilavasitə onların da vəzifəsinə aid edildiyini nəzərə alaraq, daxil olmuş materiallara qanunvericiliyə əməl olunmaqla obyektiv və qərəzsiz baxmalı, onların əsassız geri qaytarılmasından çəkinməli, məhkəmə qərarı və qərardadlarından verilmiş apellyasiya şikayətlərinin (protestlərinin) vaxtında yuxarı instansiya məhkəməsinə göndərilməsini təmin etməlidirlər. Eləcə də qeyd olunmalıdır ki, hazırkı iş üzrə Sumqayıt Şəhər Məhkəməsinin göstərilən qərardadından inzibati xəta haqqında protokol tərtib etmiş vəzifəli şəxs qanunvericilikdə nəzərdə tutulmuş müddətdə apellyasiya şikayəti verməklə öz mövqeyini müdafiə edə bilərdi.

Göstərilənlərə əsasən Konstitusiya Məhkəməsinin Plenumu belə nəticəyə gəlir ki, İnzibati Xətalar Məcəlləsinin 54.3-cü maddəsinə uyğun olaraq prokuror inzibati xətalar haqqında işlərin baxılmasında iştirak etdikdə, həmin işlər üzrə məhkəmə tərəfindən qəbul edilən qərar və ya qərardadlardan protest vermək hüququna malikdir.

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsini, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 60, 63, 65-67 və 69-cu maddələrini rəhbər tutaraq, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**QƏRARA ALDI :**

1. Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 54.3-cü maddəsinə uyğun olaraq prokuror inzibati xətalar haqqında işlərin baxılmasında iştirak etdikdə, həmin işlər üzrə məhkəmə tərəfindən qəbul edilən qərar və ya qərardadlardan protest vermək hüququna malikdir.
2. Qərar dərc olunduğu gündən qüvvəyə minir.
3. Qərar "Azərbaycan", "Respublika", "Xalq qəzeti", "Bakinski raboçi" qəzetlərində və "Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı"nda dərc edilsin.
4. Qərar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir oluna bilməz.

**Sədr:**
**Fərhad Abdullayev**

*Bakı şəhəri, 31 yanvar 2017-ci il*